www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 oktyabr 2015-ci il Cümə № 229 (6257) Qiyməti 40 qəpik

**Xəbər**

## Müsavatçı gənc həbsxanada ağır əməliyyat olundu

yazısı səh.4-də

**Gündəm**

### ABŞ şirkətinin sorğusu düşərgələri üz-üzə qoydu



Müxalifət şirkətin pul müqabilində çalışdığını iddia edir; sorğu Azərbaycan-ABŞ münasibətlərinin yumşalmasına kömək edəcəkmi?

yazısı səh.8-də

### Oddan çıxan icra başçısı indi də suya "düşdü"

yazısı səh.7-də

### Partiya sədri Azərbaycanı gözləyən təhlükələrdən danışdı

yazısı səh.6-da

### Vicdan məhbuslarının yaxınları Ali Məhkəmənin qərarını pislədi

yazısı səh.3-də

### Azərbaycana qarşı Putinin növbəti planı "göydən" gəldi

yazısı səh.9-da

### Vicdan məhbusunun qızına təzyiq məsələsi böyüdü

yazısı səh.3-də

### Biabırçı olay: ölmüş şəxs məhkəməyə çağırılıb

yazısı səh.15-də

### Yeni hökumət Türkiyədə axan qanı durdura biləcəkmi...

yazısı səh.9-da

### Avropa Məhkəməsindən ermənilərə "soyqırım" zərbəsi

yazısı səh.8-də

### Yunusların məhkəməsi 3 dəqiqəyə bitdi

yazısı səh.7-də

### Qarabağda Qərbi qorxudan "dəhşət ssenarisi"

yazısı səh.11-də

### Azərbaycanda dustaqlara niyə elektron qolbaq tətbiq edilmir?

yazısı səh.3-də

## İqtidar oliqarx-məmur korpusunun "əl-ayağını" yığır

# YENİ ANTİKORRUPSİYA HƏBSLƏRİ BAŞLAYIR: "BÖYÜK BAŞLAR" DƏRDDƏ...

Baş Prokurorluqda antikorrupsiya əməliyyatları üçün görəvləndirilən xüsusi qrup yaradılıb; həbslərlə bağlı qərarlar birbaşa prezidentin adından icra olunacaq; 2011-ci ildən başlamış və nisbətən aşağı məmur korpusunu əhatə edən həbslər bu dəfə daha yüksək dairəni və miqyası əhatə edəcək; artıq bir sıra nazirlik və komitədə yoxlamalara start verilib




yazısı səh.5-də

# Ziya Məmmədov işsiz qaldı

Nəqliyyat Nazirliyinin daha bir mühüm səlahiyyəti alınıb DİN-ə verildi; nazirliyin işi yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanması olacaq

yazısı səh.5-də



Heydər Əsədov

### Kənd təsərrüfatı nazirindən "Yeni Müsavat"a sensasion müsahibə

yazısı səh.4-də



Həsən Zeynalov

### İstanbul baş konsulumuz axtarışa verilən azərbaycanlı qadın haqda danışdı

yazısı səh.7-də



*Arif Rəhimzadə:*

### "İndi siz deyirsiniz, biz parlamentdən o dünyaya gedəcəyik?"

yazısı səh.6-da



## İlham Əliyev Qazaxıstana getdi

**Azərbaycan prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçiriləcək iclasında iştirak etmək üçün oktyabrın 15-də bu ölkəyə işgüzar səfərə gedib.**

Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Kokşetau şəhərinin hava limanında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycanın dövlət başçısını yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

## Mehriban Əliyeva ABŞ səfiri ilə görüşdü



**Oktyabrın 15-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Robert Sekuta ilə görüşüb.**

Qonaqları Heydər Əliyev Fondunda salamlayan Mehriban Əliyeva Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrdən danışıb. Azərbaycanın birinci xanımı ölkəmiz müstəqilliyini bərpa edəndən sonra Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə uğurlu əməkdaşlıq etdiyini bildirib. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrdə neft-qaz sektorundakı əməkdaşlığı xüsusi qeyd edib.

Görüşdə ölkəmizdə regionun ən iri layihələrinin reallaşdırıldığı diqqətə çatdırılıb.

Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin yeni missiya rəhbəri Mikaela Meredisin də iştirak etdiyi görüşdə bu layihələrin həm region, həm Avropa üçün əhəmiyyəti vurğulanıb (AZƏRTAC).

## "Neftçi" "ASAN xidmət"lə müqavilə imzalayacaq




**Oktyabrın 16-da yeni titul sponsoru - "ASAN xidmət"lə müqavilə imzalayacaq "Neftçi"nin bundan sonra maykasının üzərində SOCAR yazısı olmayacaq.**

"Qafqazinfo" xəbər verir ki, klubun bunun qarşılığında 10 milyon manat əldə edəcəyi barədə məlumat olsa da, "ağ-qaralar"ın icraçı direktoru Elnur Məmmədov informasiyanı təkzib edib.

Futbolinfo.az-a açıqlamasında klub rəsmisi məbləğin 10 milyon olmadığını bildirməklə yanaşı, müqavilənin detalları barədə sabah "ASAN xidmət"lə müqavilə imzalanarkən məlumat verəcəyini dilə gətirdi: "Xeyr, "ASAN xidmət"lə 10 milyonluq müqavilə imzalanmayacaq. Bu məbləğ həddən artıq şişirdilib. Müqavilədə bir çox başqa məqamlar olacaq, onları da tam açıqlayacağıq. Amma bundan sonra komandanın maykalarında məhz titul sponsorumuzun reklamı əks olunacaq. SOCAR yazısı formalarda olmayacaq".

Qeyd edək ki, "Neftçi" "ASAN xidmət"li maykalarında Topaz Premyer Liqasının növbəti turundan etibarən çıxmağa başlayacaq. Şənbə günü "ağ-qaralar" doğma meydanda "Qəbələ"ni qəbul edəcək.

## Qanunsuz ov edən ərəb saxlanıldı

**Oktyabrın 14-də Ağgöl Milli Parkının ərazisində ov etmək istəyən Suriya vətəndaşı İmad Alabarsan Hlayıl və Azərbaycan vətəndaşı Ramil Ağayev Milli Parkın mühafizə işçiləri tərəfindən saxlanılıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, qanun pozucularının 10-PE-901 dövlət nömrə nişanlı, "Niva" markalı avtomobilinə keçirilən baxış zamanı oradan 1 ədəd binokl, quş saxlamaq üçün səbət və ov vasitələri müəyyən olunaraq götürülüb.

Faktla bağlı qanunvericiliyin tələblərinə uyğun akt və protokol tərtib edilərək qanunsuz ov alətləri müsadirə olunub.

"Heyvanlar aləmi haqqında" Qanunun tələblərini pozduqlarına görə qanun pozucuları İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən 2600 manat məbləğində cərimə edilib.

# Dağıstan prezidenti Naftalana müalicəyə gəldi

**Rusiya Federasiyasının Dağıstan Respublikasının prezidenti Ramazan Abdulatipov Azərbaycanda səfərdədir.**



Prezident bu gün Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevlə görüşüb.

Qonağa Gəncənin tarixi, mədəniyyəti, şəhərdə aparılan quruculuq işləri barədə məlumat verilib.

Görüşdə gələcəkdə Dağıstanın bir şəhəri ilə Gəncənin qardaşlaşması məsələsi də müzakirə olunub.

Prezidentə Nizami Gəncəvinin "Xəmsə"si hədiyyə olunub.

Görüşdən sonra açıqlama verən R.Abdulatipov səfərinin qeyri-rəsmi xarakter daşıdığını bildirib: "Azərbaycanda qeyri-rəsmi səfərdəyəm. Səfərimin məqsədi müalicə almaqdır. Naftalan şəhərində müalicə olunacağam. Səfər çərçivəsində Gəncə şəhər Heydər Əliyev Park Kompleksində oldum. Çox möhtəşəm mərkəzdir. Mən Heydər Əliyevi həmişə özümə müəllim hesab etmişəm".

Ramazan Abdulatipov Dağıstanla Azərbaycanın yaxın əlaqələrinin olduğunu bildirib. O, Dərbəndin Dağıstan və Azərbaycan ustaları tərəfindən salındığını, 2000 illiyi ərəfəsində şəhərin yenidən qurulmasına da Azərbaycanın yaxından kömək etdiyini qeyd edib (APA).

## Ərdoğanla Putin yenidən görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu il dekabrın sonunda Rusiyanın dövlət başçısı Vladimir Putinlə Kazanda görüşməyi planlaşdırır.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Türkiyənin Rusiyadakı səfiri Ümid Yardım Moskvadakı beynəlxalq konfransda çıxışı zamanı bildirib.

Səfir deyib ki, bu il dekabrın sonunda Rusiya-Türkiyə Yüksək Əməkdaşlıq Şurasının toplantısı çərçivəsində iki ölkə prezidentlərinin görüşəcəyi gözlənilir.

O qeyd edib ki, Türkiyə ilə Rusiya arasında davamlı olaraq sıx təmas var.

Xatırladaq ki, prezidentlər bir az əvvəl Moskvada görüşmüşdülər.

## Polis mayoru piyadanı öldürüb hadisə yerindən qaçdı

**Oktyabrın 15-nə keçən gecə Azərbaycanın Şabran rayonunda piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

Şabran rayon sakini, 1979-cu il təvəllüdlü Gülşahnaz Məlik qızı Soltanova naməlum maşın tərəfindən vurulub, sürücü hadisə yerindən qaçıb. Ağır vəziyyətdə Şabran Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilən piyadanın həyatını xilas etmək mümkün olmayıb. O, səhər saatlarında xəstəxanada ölüb.

Piyadanı vuran sürücünün də kimliyi müəyyənləşib. Hadisəni törədən şəxs Şabran Rayon Polis Şöbəsinin əməkdaşı, sahə müvəkkili, polis mayoru Ramin Ağayevdir. O, idarə etdiyi "Niva" markalı avtomaşınla qəzanı törətdikdən sonra hadisə yerindən qaçıb.

Faktla bağlı Şabran Rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir (APA).

## Moskvada Azərbaycan göyərtisi uğrunda kriminal müharibə: 9 "vor zakon" tutuldu



**Oktyabrın 15-də Moskvada hüquq-mühafizə orqanlarının əməkdaşları SOBR xüsusi təyinatlı dəstəsinin döyüşçülərinin köməyi ilə restoranlardan birinə basqın edərək "sxodka"ya toplaşan bir qrup "vor zakon"u saxlayıb.**

Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, "sxodka" yezidi kürd qruplaşması ilə gürcü qruplaşması arasında onların "krışalıq" etdiyi biznesmenlərin maraqları ilə bağlı keçirilirdi.

"Sxodka"da 9 "vor zakon" həbs olunub. Bunlar gürcü "vor"lardan "Matsik" ləqəbli Qvaramiya Maxare və Nuqraz Torçinava, habelə Roman Musus Lomtadze və Şalva Roko Xuçua, habelə Vitali İzqilov kimi tanınmış kriminal avtoritetlərdir.

Bildirilir ki, yezidi kürd qruplaşması ilə gürcü qruplaşması arasında münaqişə "Ded Xasan"ın öldürülməsindən sonra başlayıb. "Ded Xasan"ın öldürülməsi yezidi kürd klanını başsız qoyub və daxili münaqişələr bir vaxtlar kifayət qədər qüdrətli olan qruplaşmanı parçalayıb, habelə digər qruplaşmalarla münaqişələrə səbəb olub.

Əməliyyat məlumatlarına əsasən, "gürcülər" və "yezidlər" Moskvada əsasən ərzaq bazarlarını, o cümlədən Azərbaycandan göy-göyərti və meyvə-tərəvəz təchizatını, qumarxanaları və fahişəxanaları, habelə gömrükdə müsadirə olunan malların reallaşdırılmasını himayə edir. Münaqişə də bu biznes sahələrinin bölüşdürülməsi uğrunda başlayıb.

## Eldar Əzizov Səbayeldə söküntüyə başladı



**Sumqayıtdan Bakının Səbayel rayonuna icra başçısı gətirilən Eldar Əzizov oradakı "ssenarisini" burada da həyata keçirməyə başlayıb. Rayon sakinlərinin verdiyi məlumata görə, artıq bir neçə ev, xırda ticarət obyektləri sökülüb.**

Modern.az saytının əldə etdiyi məlumata görə, söküntünün birinci dalğasına Səbayelin Badamdar qəsəbəsində start verilib. Bu prosesin hazırda da davam etdiyi bildirilir.

Qeyd edək ki, Eldar Əzizov bundan əvvəl Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı olub. Onun Sumqayıtdakı bu cür addımları köçkün ailələri və sahibkarlar tərəfindən daim etirazla qarşılanıb.

## Bakı məktəbində kütləvi dava

**Bakının Səbayel rayonundakı 160 nömrəli Klassik Gimnaziyada 10 və 11-ci sinif şagirdləri arasında kütləvi dava baş verib. Bu barədə "Report"a Səbayel Rayon Polis İdarəsindən bildirilib. Hadisə nəticəsində gimnaziyanın 10-cu sinif şagirdi, 16 yaşlı Fərhad İlham oğlu Qasımov döyülüb. Onun burnu sındırılıb. F.Qasımov xəstəxanaya aparılıb.**

Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, 160 nömrəli Klassik Gimnaziya Təhsil Nazirliyinin 2013-cü ildə açıqladığı 2012-2013-cü il buraxılış imtahanlarının nəticələrinə görə orta məktəblərin reytinq siyahısında ikinci olub.



## Milli Məclisin son iclasının gündəliyi dəyişdi

**Azərbaycan Milli Məclisinin (MM) IV çağırışda son plenar iclasının gündəliyi dəyişdirilib və gündəliyə əlavə layihələr salınıb.**

MM-dən APA-ya verilən məlumata görə, oktyabrın 20-də keçiriləcək iclasın gündəliyindəki məsələlərin sayı 25-dən 33-ə qaldırılıb. Gündəliyə 2016-cı il üzrə büdcə zərfinin təsdiqi ilə yanaşı, bir neçə ölkə ilə Azərbaycan dövlətinin imzaladığı sazişlər, "Məhkəmə-Hüquq Şurası haqqında", "Məhkəmə və hakimlər haqqında", "İnformasiya əldə etmək haqqında", "KİV haqqında" və digər qanunlara dəyişikliklər salınıb.

Xatırladaq ki, son iclasın tarixində də dəyişiklik olunub, oktyabrın 23-də keçirilməsi nəzərdə tutulan iclas ayın 20-nə təyin edilib.

Qeyd edək ki, noyabrın 1-i Milli Məclisə V çağırış üzrə seçkilər keçiriləcək.

## Mərkəzi Bankın nizamnamə kapitalı 50 dəfə artırılır

**Azərbaycan Mərkəzi Bankının nizamnamə kapitalı 10 milyon manatdan 500 milyon manata artırılır.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunun 10.2-ci maddəsinə dəyişiklik təklif edilir.

Dəyişikliyə əsasən, "Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdır" cümləsində "10 milyon" sözü "500 milyon" sözü ilə əvəz edilir.

Layihə Milli Məclisin oktyabrın 20-də keçirilən plenar iclasında müzakirəyə çıxarılacaq.

## MTRŞ teleaparıcılar barədə qərar qəbul edəcək

**"Televiziya və radio yayımı haqqında" Qanunun tələblərinin imkan verdiyi dərəcədə aparıcıların efirdəki davranışlarına nəzarət edirik. Efir mədəniyyəti, aparıcılıq səviyyəsi aşağı olan aparıcılarla bağlı qərar qəbul ediləcək".**

Bunu APA-ya Milli Televiziya və Radio Şurasının (MTRŞ) Ekspertiza, Proqramlaşdırma və Analitik şöbəsinin müdiri Təvəkkül Dadaşov deyib. O bildirib ki, apancıların efirdəki davranışları şurada diqqətlə izlənilir.

T.Dadaşov qeyd edib ki, bütün hallarda yayımçıların bu məsələdə özləri maraqlı olmalıdırlar: "Aparıcılar kanalların simasıdır. Aparıcılar telekanalların ictimaiyyət arasında nüfuzunu artıra da, azalda da bilər. Onların efirdəki davranışı birbaşa telekanalların özlərinin mənafeyi ilə bağlı olan məsələdir. Telekanal rəhbərliyi bu məsələdə daha diqqətli olmalıdır, bu, telekanalları daha çox maraqlandırmalıdır".

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

**Oktyabrın 13-də Ali Məhkəmədə Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL sədri İlqar Məmmədovun 9 aydır yubanan kasasiya şikayətinə baxılıb. Məhkəmənin qərarına əsasən, kasasiya şikayəti qismən təmin edilib. Şəki Apelyasiya Məhkəməsinin İ. Məmmədov və T. Yaqublu barəsindəki qərarı ləğv edilib, iş yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarılıb.**

# Vicdan məhbuslarının yaxınları Ali Məhkəmənin qərarını pislədi

## **Nigar Yaqublu:** "Onları həbsdə daha çox saxlamağa hesablanmış qərardır"
## **Fuad Ağayev:** "Azərbaycan beynəlxalq birliyin üzvüdürsə..."

**T.Yaqublunun qızı Nigar Yaqublu bunun məhkəmə prosesinin uzadılmasına hesablanmış qərar olduğunu qeyd etdi:** "Qərar ləğv olunub, təzədən Apelyasiya Məhkəməsinə göndərildi. Bu cinayət işi tamamilə saxtakarlıq üzərində qurulduğuna görə, instansiya məhkəmələrindən ədalətli qərar gözləmirdik. Təxminlərimiz gözlədiyimiz kimi oldu. Ali Məhkəmənin işi təzədən geri göndərməsi siyasi məhbusları həbsdə daha çox saxlamağa hesablanmış qərardır. Ali Məhkəmə bir işə 9 ay müddətində baxırsa, burada ədalətli qərardan söhbət gedə bilməz. Şəki Apelyasiya Məhkəməsinin işə nə vaxt baxacağı məlum deyil. Artıq Tofiq Yaqublu və İlqar Məmmədovun həbsdən vaxtından əvvəl azad olunmaları üçün 4 aydan az müddət vaxt qalıb. Beləliklə, prosesi məhkəmələrlə yenidən uzadacaqlar. Onlara təzədən işgəncə verilməsi üçün hesablanmış addımlardır. Heç bir məhkəmə instansiyasından ədalətli qərar gözləmirik. Onları yenidən başqa həbsxanalara göndərmək özləri üçün də, bizim üçün də çox çətindir. O şəraitə uyğunlaşmaq asan məsələ deyil. Sistem dəyişmədikcə, bu ölkədə heç nə dəyişməyəcək".



**REAL sədrinin vəkili Fuad Ağayev "Yeni Müsavat"a açıqlamasında Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının icra olunmasının vacibliyini vurğuladı:** "Azərbaycan üzərinə beynəlxalq hüquq öhdəliklər götürüb. Ölkəmiz Avropa Şurasının üzvüdür. Avropa İnsan Haqları Məhkəməsinin qərarları Azərbaycan tərəfindən icra olunmalıdır. İlqar Məmmədovla bağlı bu qurumun qərarı var. Həmin qərar əsasında Nazirlər Komitəsi iki qərar qəbul edib. Ötən ilin dekabrında və bu ilin iyununda. Aralıq qətnamədə İlqar Məmmədovun yubanmadan azad olunması tələbi var. Onun həbsi, onun susdurulması məqsədini daşıyıb. Həbsin tamamilə qanunsuz olduğu Konvensiyada açıq şəkildə qeyd olunub. Azərbaycan hakimiyyəti birmənalı olaraq, İlqar Məmmədovu azad etməli idi. İlqar Məmmədovu müdafiə etdiyimə görə yalnız onun haqqında danışıram. Ali Məhkəmə xoşagəlməyən qərar qəbul etdi. Azərbaycan hökumətinin adından qərar vermək səlahiyyətinə malik olan qurum növbəti dəfə götürülən öhdəlikləri kobud şəkildə pozdu. İş qaytarılıb Bakı Apelyasiya Məhkəməsinə. Sözün açığı, işə baxılmanın yenidən uzadılacağı barədə fikir söyləməyə çətinlik çəkirəm. Azərbaycan beynəlxalq birliyin üzvüdürsə, üzərinə götürdüyü öhdəliklərə əməl etməlidir".

İlqar Məmmədova qarşı həbsxanada növbəti təzyiqlər başlayıb. Onun yanındakı məhbuslara təzyiqlər olunur. REAL-dan verilən məlumata görə, məhbuslardan biri - Renat Yusifov bir neçə gündür ki, karsa salınıb. Artıq üç gündür R.Yusifov "kars"da aclıq edir. Təzyiqlər İlqar Məmmədova görədir.

REAL hakimiyyəti və Penitensiar Xidməti bu hərəkətlərə son verməyə, Ombudsman Aparatını qeyd olunan şəxslə maraqlanmağa çağırır. Hərəkat həmçinin Renat Yusifovun karsdan buraxılmasını tələb edir.

Xatırladaq ki, T. Yaqublu və İ. Məmmədov İsmayıllı hadisələri ilə bağlı həbs olunublar.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlqar Məmmədov 7 il, Tofiq Yaqublu 5 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti Şəki Apelyasiya Məhkəməsinin qərarı ilə təmin edilməyib.

❑ **Cavanşir ABBASLI**



Yadigar Sadıqov

# Vicdan məhbusunun qızına təzyiq məsələsi böyüdü

## Müdafiə Komitəsi beynəlxalq təşkilatlara müraciət hazırlayır; **Rövşanə Səmədova:** "İşin arxasında Lənkəran Rayon İcra Hakimiyyəti dayanır..."

**Müsavat başqanının həbsdəki müavini, vicdan məhbusu Yadigar Sadıqovun qızı Rövşanə Səmədova atasının siyasi fəaliyyətinə görə işə götürülmür. "Əmrahbank"da çalışan R.Səmədova 5 il öncə analıq məzuniyyətinə çıxıb. Lakin sonradan qayıdarkən işə qəbul olunmayıb.**

R.Səmədova arqument.az-a bildirib ki, analıq məzuniyyətinə çıxarkən bank tərəfindən ona "işdən azadetmə, məzuniyyətə çıxmaq və yenidən işə qayıtmaq" haqqında ərizə yazdırıblar. Sonradan işə qayıdarkən, o, iki ərizənin ləğv edildiyini, yalnız "işdən çıxmaqla" bağlı ərizənin saxlanıldığını görüb.

Siyasi dustağın qızı "Unibank", "AccessBank"ın və "Parabank"ın yeni açılmış Lənkəran filialına CV təqdim etdiyini, müsaqibələrdə uğurla iştirak etməsinə baxmayaraq işə qəbul olunmadığını da söyləyib. O, proseslərin arxasında Lənkəran Rayon İcra Hakimiyyətinin dayandığını deyib: "Yaxın qohumlarımızdan birinə deyiblər ki, məni atamın siyasi fəaliyyətinə görə işə götürmürlər. Həm də bu işin arxasında Lənkəran Rayon İcra Hakimiyyətinin dayandığını, tapşırığın onlar tərəfindən verildiyini deyirlər. Atama görə mənə iş vermirlər".

**Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah "Yeni Müsavat"a açıqlamasında yaşananları ailə repressiyalarının tərkib hissəsi adlandırdı:** "Artıq hakimiyyət repressiyanın ailəvi mərhələsinə keçib. Yadigar Sadıqovun qızının əvvəllər işlədiyi banka bərpa olunmasına yaradılan maneələr ailə repressiyasının tərkib hissəsidir. Açıq şəkildə ona bildiriblər ki, atası hakimiyyətə qarşı olduğu üçün onu işə qəbul etməkdən çəkinirlər. Məsələni yaxın-uzaq olmasından asılı olmayaraq, bütün qohumlara qədər uzadırlar. Cəmiyyətə repressiyanın ağrı-acısını hiss etdirirlər. Bununla bağlı etirazımızı bildirmişik. Beynəlxalq təşkilatlara bu məsələ ilə bağlı müraciətlərimizi göndərəcəyik. Yadigar Sadıqova olan təzyiqlər səngimək bilmir. Təzyiqlər artıq ailə üzvlərinə yönləndirilir. İllərdir onu qanunsuz həbsdə saxlayırlar".

**E.Fəttah problemlə bağlı ölkə başçısına müraciət edib-etməyəcəkləri məsələsinə də toxundu:** "Məsələ ictimailəşib. Təzyiqlər mərkəzi hakimiyyətdən qaynaqlanır. Əgər məsələdən hakimiyyətin xəbərsiz olduğunu iddia edirlərsə, o zaman həll etsinlər. Çünki deyildiyi kimi, problem ictimailəşib. Bunlar hakimiyyətin tapşırığı əsasında həyata keçirilir. Yerli məmurlar yuxarıların tapşırığı olmadan belə qanunsuzluğa getməzlər. Mətbuat bu məsələni geniş şəkildə işıqlandırıb. Bu, elə müraciətin bir formasıdır".

Yadigar Sadıqov 2013-cü il iyunun 27-də Lənkəranda həbs olunub. Lənkəran sakini Rəşid Kərimovu döyməkdə, ona bədən xəsarəti yetirməkdə ittiham olunan Yadigar Sadıqov 2014-cü il yanvarın 13-də Lənkəran Rayon Məhkəməsinin qərarı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. Amma o, bu ittihamı əsassız sayıb və özünün siyasi fəaliyyətinə görə şərləndiyini deyib. İyulun 22-də Şirvan Apelyasiya Məhkəməsi ona verilən həbs cəzasını 4 ilə endirib.

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanda dustaqlara niyə elektron qolbaq tətbiq edilmir?

## Hüquqşünas Müzəffər Baxış:
## "Bu bilərziklər elə bir imkanlara malikdir ki..."

**Demək olar ki, bütün ölkələrdə təqsirləndirilən şəxslər ev dustaqlığına buraxıldığı zaman onların qoluna yerlərini təsbit edəcək elektron qolbaq bağlanır. Bu qolbaq vasitəsilə təqsirləndirilən şəxs əgər ev dustaqlığından qaçarsa, yerini təsbit etmək olur. Həmin qolbağı qolundan çıxarıb atmaq isə ev dustaqlığından imtina etmək anlamına gəlir ki, bu zaman hüquq-mühafizə orqanları xüsusi siqnal vasitəsilə bundan xəbərdar olur.**




Ümumiyyətlə, Azərbaycanda təqsirləndirilən şəxslərin ev dustaqlığına buraxılması çox az hallarda baş verir. Maraqlıdır, elektron qolbağın başqa hansı özəllikləri var və bundan niyə Azərbaycanda istifadə edilmir?

Dustaqlar üçün nəzərdə tutulan elektron qolbaq 1950-ci ildə Harvard Universitetinin alimləri tərəfində icad edilsə də, ilk dəfə məhkumlar üzərində 1983-cü ildə tətbiq edilib. Elektron qolbağın işləmə mexanizmi sadədir. Konfiqurasiyasından asılı olaraq ev dustaqlığına buraxılmış şəxs müəyyən edilən ərazini tərk etdikdə siqnal verir. Həmin siqnal həbsxanada xüsusi quraşdırılmış monitora verilir və ona nəzarət edən operatora yazılı mesaj - həyəcan siqnalı çatır. Operator da həmin həyəcan mesajını arestantın nəzarətini birbaşa həyata keçirən ərazi üzrə nəzarətçiyə ötürür. Nəzarətçi əvvəl həmin siqnalın hər hansı texniki xəta olub-olmamasını araşdırmaq üçün ev dustaqlığına buraxılanın ev telefonuna zəng edir. *(Evdə kabel telefonunun olması ən əsas şərtdir)* Ev dustağı zəngə cavab vermirsə, bu dəfə onun evinin qapısı döyülür. Statistika göstərir ki, "elektron ev dustağı" edilmiş şəxslərin 99 faizi bu şərtlərə əməl edir. Elektron qolbağın tətbiq edildiyi bütün ölkələrdə nəzarət mexanizmi, demək olar ki, bu cür həyata keçirilir. Qeyd edək ki, İsrail istehsalı olan bu cür qolbaqların qiyməti 1000-2500 avro arasındadır.

Hüquqşünas Müzəffər Baxış dedi ki, Cinayət Prosessual Məcəllənin tələblərinə görə, qətimkan tədbirlərindən biri də ev dustaqlığıdır. Ev dustaqlığı qətimkan tədbiri qismində təqsirləndirilən şəxsi həbsdə saxlamadan və cəmiyyətdən tam təcrid etmədən, lakin məhkəmənin qərarı ilə müəyyən edilmiş azadlıq və digər bir sıra hüquqlara məhdudiyyət qoyulmasından ibarətdir. Yəni ev dustaqlığının mahiyyəti budur. Məhdudiyyətlər isə ona qoyula bilər ki, ev dustaqlığına ayrı-ayrı tətbiq olunan aşağıdakı tədbirlər müşahidə edilə bilər: yaşayış yerindən tamamilə və ya müəyyən vaxtlarda çıxmağa qadağa qoyulması, telefon danışıqlarına, poçt göndərişlərinə və digər rabitə vasitələrindən istifadəyə qadağası qoyulması, müəyyən şəxslərlə ünsiyyətdə olmağa və evində hər hansı şəxsi qəbul etməyə qadağa qoyulması, elektron nəzarət vasitələrinin tətbiqi, bu vasitələri gəzdirmək və onların işinə xidmət etmək vəzifəsinin qoyulmasıdır. Yəni qanunda da elektron nəzarət vasitələrinin tətbiqi məsələsi nəzərdə tutulub. Cinayət Prosessual Məcəllənin 163.3.4-cü maddəsində elektron nəzarət vasitələrinin tətbiqi, o vasitələri gəzdirmək və onların işinə xidmət etmək vəzifəsinin qoyulması nəzərdə tutulub. Amma bizdə bunun tətbiqi ilə bağlı konkret heç bir hal yoxdur. Bir qayda olaraq Azərbaycanda ev dustaqlığı ilə həbsqətimkan tədbiri seçilmiş şəxslər barəsində əsasən polis orqanlarına müəyyən bir vaxtda şəxsən gəlmək vəzifəsi qoyulur. Başqa məhdudiyyətlər isə tətbiq edilmir. Elektron qolbağın hələ ki Azərbaycanda tətbiqinə başlanılmayıb. Əgər bu bizdə də tətbiq olunsa, daha yaxşı olardı. Təqsirləndirilən şəxsin üzərində nəzarət imkanları daha da genişlənmiş olardı. Bu bilərziklər elə bir imkanlara malikdir ki, o şəxslər onu qolundan açanda ya da ümumiyyətlə, gizləndə artıq o şəxslərin ev dustaqlığından imtina etməsi barədə hüquq-mühafizə orqanlarına məlumat olur. Onlar da ev dustaqlığına buraxılmış şəxsin tapılması üçün vaxtında müvafiq tədbirlər görmək imkanına malik olurlar".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

# Ziya Məmmədovun nazir qudası "Yeni Müsavat"a danışdı

## Kənd təsərrüfatı naziri Heydər Əsədov qəzetimizin bütün suallarına cavab verdi, təkcə bir mövzudan başqa...

**Son aylar ölkənin bölgələrində kəndlinin düşdüyü naçar vəziyyət, əkib-becərdiyi malını sata bilməməsi ciddi problemlərdən birinə çevrilib.**

*Elə gün olmur ki, ""Yeni Müsavat"a məhsulunu sata bilməyən, ziyan edən sahibkarlarla bağlı hansısa xəbər gəlməsin. Bundan başqa, dövlət başçısı İlham Əliyev də keçirdiyi son müşavirədə bəzi fəaliyyət sahələrindəki problemlərdən danışıb, onları aradan qaldırmaq üçün sahə rəhbərlərinə, nazirlərə göstəriş verib.*

*"Yeni Müsavat" isə bu sahələrdən birinə - Kənd Təsərrüfatı Nazirliyinə rəhbərlik edən şəxslə danışıb. Kənd təsərrüfatı naziri Heydər Əsədovun adını son günlərdə aktual edən səbəblərdən biri də onun nəqliyyat naziri Ziya Məmmədovla qohumluğudur. Sonuncunun bəzi iddialara görə "vurulması", bir-bir əlindən səlahiyyətlərinin alınması fonunda yaxın qohumlarına da təhlükə yaranacağı istisna edilmir. Biz də söhbət zamanı bu mövzulara aydınlıq gətirməyə çalışdıq.*

*Nazir öncə sadə kəndlinin düşdüyü vəziyyəti təsvir etdi.*

***- Heydər müəllim, üzümçülük və pambıqçılıq rayonlarında fermerlər becərdikləri məhsullarını sata bilmədiklərindən şikayət edirlər. Bunun səbəbləri ilə maraqlanmısızmı?***

- Elə söhbət yoxdur. Hər kəs öz becərdiyi məhsulu sərbəst şəkildə sata bilir. Kim sata bilmirsə buna nazirlik nə edə bilər?

***- Hazırda üzümçülüklə məşğul olan fermerlər məhsullarının plantasiyalarda qalıb xarab olduğunu, bazar tapa bilmədiklərini deyirlər.***

- Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi yarmarkaların fəaliyyətinə yenidən start vermişik. Artıq Əhmədlidə biri fəaliyyətə başlayıb. Yasamal və Sumqayıtda da yarmarkalar açılacaq, danışıqlar gedir. Fermerlər, kəndlilər bu yarmarkalarda öz həyətyanı sahələrində yetişdirdikləri məhsulları rahat sata biləcək.

***- Biz sizə faktlardan danışaq. Məsələn, üzümçülük rayonları olan Tovuzda, Cəlilabadda 100 tonlarla məhsul sahələrdə qalıb, bazar olmadığı üçün fermerlər sata bilmirlər. Bu problem niyə kütləvi hal alıb?***

- Kütləvi deyil. Yaxşı bazarlara çıxışları yoxdur. Bir tərəfdən yarmarka yoxdur, o biri tərəfdən də devalvasiyaya görə xarici bazara çıxmırlar.



## "Mən "perepiska"ya gedən oğlan deyiləm"

***- Kənd təsərrüfatı məhsullarının xaricə çıxarılması ilə bağlı qadağa qoyulduğu deyilir. Bu nə ilə bağlıdır?***

- Elə şey yoxdur. Əksinə, həvəsləndirici tədbirlər hazırlayırıq. Ümumi danışanlar çoxdur, keçən illərin təcrübəsi ilə danışır çoxu. Amma faktlar bunun əksini göstərir.

***- Həvəsləndirici tədbirlər deyiləndə nə nəzərdə tutulur?***

- Hələ bu barədə düşünürük. Dünyada bəzi təcrübələr var. Amma düzgün uçot olmadığı üçün bu təcrübənin tətbiqi ilə bağlı tərəddüdlərimiz yaranıb. Əksinə, indi biz həvəsləndirici tədbirlərə getmək istəyirik ki, kəndlinin öz malını satması, bazara çıxarması halları artsın.

## "Kənd Təsərrüfatı Nazirliyində prokurorluq yoxlama aparmır"

***- Amma fakt dəyişmir ki, yerlərdə sahibkarların əlində tonlarla məhsulu tökülüb qalır...***

- Bir məsələni qəbul edin ki, bu məhsul ya daxili bazara çıxmalıdır, ya da xaricə. Mənlə razısınız? Daxili bazarla, yarmarka ilə bağlı əhalinin bəzi kəsimi narazılıq edir. Biri deyir, yarmarka yolumu kəsir. Mən nazir kimi qoyuram, amma cəmiyyətdən narazılıq var. Daxildə vəziyyət belə olur. Xaricə çıxmaq üçün də sərhəddən qoymurlar. Sonra da deyirsiz, sahibkarın əlində məhsulu qaldı. Mən də sizdən soruşuram: niyə qoymursuz?

***- Son 2 ilə qədər Yasamalda, Ukrayna dairəsində bazarlar yox idi, onda bu mallar harda satılırdı?***

- Bazarlar yox idi, ona görə də məhsul 6 qəpiyə evlərdə tökülüb gedirdi.

***- Zavodlar da götürmür...***

- Bəli, götürmürdü. Tökülüb gedirdi. Harda ki, bazar açmışıq, orda bu məhsullar qəşəng satılıb. Harda ki, bazara çıxış yoxdur, orda Meyvəli Bazara verirlər. Çıxış olmayanda gərək hər yerdə yarmarka edəm. İndi Sumqayıtı, Binəqədini açıram.

***- Nə zaman olacaq açılış?***

- Xətaini artıq açdıq. "Bakı" kinoteatrının yanında. Ya bu bazar, ya da gələn bazar Sumqayıt və Binəqədini istifadəyə verirəm. Sonra bir-bir davam edəcəyik.

***- Bu yaxınlarda Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Kənd Təsərrüfatı Nazirliyində yoxlama aparması ilə bağlı məlumatlar yayıldı...***

- Xeyr, bizdə yoxlama getmir. Səmimi deyirəm, yoxdu yoxlama.

***- Prezidentin son müşavirədəki çıxışında ciddi nüanslar vardı. Siz bu çıxışı necə qiymətləndirirsiz?***

## "Prezident son müşavirədə bizim sahəni təriflədi"

- Orda bizim sahə ilə, kənd təsərrüfatı ilə bağlı ancaq müsbət məqamlar idi. Cənab prezident bizi təriflədi.

***- Korrupsiya, haqq qoyma ilə bağlı narazılığını bildirdi, "artıq hövsələ yoxdur" dedi...***

- Bilirsiniz ki, cənab prezident onu başqa sahələrlə bağlı dedi. Kənd təsərrüfatında nə haqq qoyma var, nə də başqa neqativ hal. Subsidiya da tərtəmiz. Bir adam gəlsin, desin. Mən əminəm ki, kənd təsərrüfatında bir problem yoxdur. O sualları aidiyyəti yerlərə ünvanlayın, mümkünsə.

***- Subsidiyaların verilməsində vəziyyət necədir?***

- Yaxşıdır. Birinci hissə açılmışdı, indi ikinci hissə də açıldı. Tamamilə şəffaf şəkildə fermerlər onlara ayrılmış subsidiyalarını alırlar. Heç bir problem yoxdur. Burda tam elektron hesab gedir - sahəsinə, adamına, kəndinə, torpağının sahəsinə qədər hesabını qurmuşuq. Elektron uçotu yavaş-yavaş sistemləşdiririk. Ona görə də bu sahədə heç bir problem yoxdur. Pul birbaşa Maliyyə Nazirliyindən xəzinənin hesabına, ordan da adamların kartına vurulur. Heç o pulu mən Kənd Təsərrüfatı Nazirliyinə almıram. Bizim hesaba gəlmədən birbaşa yerli xəzinə orqanlarına daxil olur, ardınca isə insanların kartlarına. Heç kim heç nə deyə bilməz. Kimsə kiminsə sahəsini düz ölçməyə bilər, ya da kimsə kiminsə sahəsində xırda nöqsanlara yol verə bilər. Amma ümumilikdə götürdükdə belə söhbət ola bilməz. Əgər bir fakt tapsanız, özümə deyə bilərsiz.

***- Kəndli bu gün öz torpağından xeyir götürə bilmir. Becərdiyi məhsulu sata, ondan pul qazana bilmir. Halbuki sovet vaxtı tam əksinə idi.***

- Yalan söhbətdir. Bu, ümumi şüar söhbətlərdir. Siz məhsuldan xeyir götürməsəz, onu bir daha əkərsiz? Torpaqda işləyirlər, məhsul da ildən-ilə artır. 7 faiz məhsul artıb. Necə torpaqdan qorxurlar ki, məhsul 7 faiz artıb?

***- Siz statistikanı deyirsiz, mən sizə reallıqdan danışıram...***

- Mən də reallığı deyirəm. Mən "perepiska"ya gedən oğlan deyiləm. Reallıq isə budur ki, əhalinin bir qismi kartofu sahədə əkir. 50 dəfə deyirik ki, kartofu sahədə saxlayanda kəpənək onu yeyir. Kəpənək də arı kimi qonur kartofun başına, güvə salır. Ona nazirlik nə etməlidir?

***- Sizinlə söhbət etmişkən, qudanız Ziya Məmmədovla bağlı son günlər artan müəmmalardan da danışmaq istərdik. Yayılan xəbərlərə görə...***

- *(Sualı yarıda kəsir)* Bağışlayın, indi mənim yanımda adam var, sonra danışarıq...

❑ Azər AYXAN,
Sevinc TELMANQIZI

# Müsavatçı gəncin həbsxanada kor bağırsağı partladı, ağır əməliyyat olundu

**Həbsdəki müsavatçı vicdan məhbusu Sirac Kərimli oktyabrın 14-də kəskin sancılanmadan sonra saxlandığı cəzaçəkmə müəssisəsindən Penitensiar Xidmətin Mərkəzi Xəstəxanasına köçürülüb. Xəstəxanada məlum olub ki, məhbusun kor bağırsağı partlayıb və əməliyyat yubanıb.**


Sirac Kərimli

Üç saat davam edən ağır əməliyyatdan sonra S.Kərimli reanimasiya şöbəsinə köçürülüb. Vicdan məhbusunun vəziyyətinin ağır olduğu bildirilir.

Hazırda reanimasiya şöbəsində olan vicdan məhbusunun atası Raqif Kərimli əvvəllər oğlunun bu xəstəlikdən əziyyət çəkmədiyini söylədi: "Bir dəfə 1 saylı Bakı İstintaq Təcridxanasında olanda sancılanmışdı. Mədəsindən şikayətlənmişdi. Ən çox şikayətləri təzyiqlə bağlı idi. Boynunda şiş var idi. Arada-bir ağrı verirdi. Oktyabrın 13-də qəflətən sancıları başlayıb. Ağrı kəsməyib. Dərman da təsir etməyib. Ondan sonra həkim çağırılıb. Əməliyyata Sirac etiraz edib. Yalnız evə zəng edəndən sonra qardaşım razı olub. Əməliyyat edən həkimlə danışdım. Dedi ki, çox ağır əməliyyat oldu. Vəziyyət hazırda hələ də qənaətbəxş deyil. Üç gün reanimasiyada qalacaq. Ondan sonra görüşməyə çalışacağıq".

Qeyd edək ki, Sirac Kərimli və qardaşı Fərəc Kərimli ötən ilin iyulunda həbs olunublar. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234-cü maddəsi ilə ittiham irəli sürülüb. F.Kərimli 6 il 6 ay, S.Kərimli isə 6 il müddətinə azadlıqdan məhrum ediliblər.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

## İqtidar oliqarx-məmur korpusunun "əl-ayağını" yığır

**Prezident İlham Əliyevin sədrliyi ilə oktyabrın 12-də keçirilmiş müşavirədə məmurlara ünvanlanmış sərt mesajlar ölkədə yeni proseslərin startı kimi dəyərləndirilir. Toplantıda dövlət başçısının "əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün, büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq" bəyanatından sonra Baş Prokurorluqda təcili müşavirə keçirilməsi iqtidarın yeni antikorrupsiya həbslərinə hazırlıq kimi qiymətləndirilir.**




# Yeni antikorrupsiya həbsləri başlayır: "böyük başlar" dərddə...

## Baş Prokurorluqda antikorrupsiya əməliyyatları üçün görəvləndirilən xüsusi qrup yaradılıb; həbslərlə bağlı qərarlar birbaşa prezidentin adından icra olunacaq;, 2011-ci ildən başlamış və nisbətən aşağı məmur korpusunu əhatə edən həbslər bu dəfə daha yüksək dairəni və miqyası əhatə edəcək; artıq bir sıra nazirlik və komitədə yoxlamalara start verilib

Qeyd edək ki, oktyabrın 14-də baş prokuror Zakir Qaralovun sədrliyi ilə müşavirə Baş Prokurorluğun binasında deyil, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçirilib ki, bu da müəyyən dairələrdə artıq həyəcan siqnalı kimi qəbul olunub. Müşavirədə dövlət başçısının göstərişlərinin icrası ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin qarşısında konkret tapşırıqlar müəyyən edilib. Daha maraqlısı budur ki, korrupsiya hüquqpozmalarının daha çox baş verdiyi sahələrin araşdırılması, onların təhlili və qarşısının alınması istiqamətində tədbirlərin görülməsi üçün müvafiq işçi qrupların yaradılmasına qərar verilib. Bakı şəhəri, bütün rayon və şəhər prokurorlarına tapşırılıb ki, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələr barədə daxil olmuş müraciətlər dərhal Respublika Baş Prokurorluğunun rəhbərliyinə məruzə edilsin.

Məlumata görə, prezidentin müşavirəsindən dərhal sonra Baş Prokurorluğun hərəkətə keçməsi ölkədə yeni antikorrupsiya tədbirlərinin başlandığından xəbər verir. Redaksiyamıza daxil olan məlumata görə, Antikorrupsiya İdarəsində işçi qrup adı altında əslində məhz antikorrupsiya əməliyyatları üçün görəvləndirilən xüsusi qrup yaradılıb. Prokurorluğa yaxın mənbəmiz deyib ki, bu qrupa geniş səlahiyyətlər verilib və həbslərlə bağlı qərarlar birbaşa prezidentin adından icra ediləcək. Bu o deməkdir ki, işçi qrup üçün heç bir maneə və toxunulmaz nazirlik və məmur olmayacaq. İcraya nəzarət isə baş prokurora tapşırılıb. Bu həm də o anlama gəlir ki, 2011-ci ildən başlamış və nisbətən aşağı məmur korpusunu əhatə edən antikorrupsiya həbslərinin bu dəfə daha yüksək dairəni və miqyası əhatə etməsi planlaşdırılır.

Xəbərlərə görə, prezidentin tapşırığına əsasən, istisnasız olaraq fəaliyyəti şübhə doğuran bütün nazirliklər və komitələrin yüksək vəzifəli məmurları "istintaq altına" düşə bilər. Bu, baş prokuroru oliqarxlar-nazirlərin mümkün təzyiqlərindən qorumaqla yanaşı, daha çox ortada prezidentin iradəsi olması mesajıdır.

***

Əsas yoxlamalar, gözlənildiyi kimi, Nəqliyyat Nazirliyi strukturunda aparılacaq. Hələ də tam təfərrüatları dəqiq bilinməyən səbəbdən iqtidarın qəzəbinə gələn Ziya Məmmədovun rəhbərlik etdiyi nazirlikdə bu yoxlamalar artıq başlayıb da. Məsələn, Bakı dairəvi yolunda yoxlamalar zamanı yolun standartlara uyğun çəkilib-çəkilmədiyi, ayrılan vəsaitin aidiyyəti üzrə xərclənib-xərclənilməməsi araşdırılıb. Bildirilir ki, yoxlamalara nazirliyin çoxsaylı mütəxəssisləri də cəlb olunub. İlkin nəticə odur ki, Bakı dairəvi yolunun çəkilişi zamanı yeyintilərə yol verilib. Nəqliyyat Nazirliyinin bütün maliyyə hesabatları artıq götürülüb, Hesablama Palatası da maliyyə yeyintiləri ilə bağlı xüsusi araşdırmaya başlayıb. Nazirliyin Maliyyə İdarəsi tam nəzarətə götürülüb və bəzi əməkdaşlar artıq həbsli olmayan nəzarət altına alınıb. Görünür ki, məhz bu yoxlamalar həm də Ziya Məmmədovla bağlı siyasi qərarın verilməsinə əsas olacaq. Ən hay-küylü həbslərin də Nəqliyyat Nazirliyi strukturlarından başlayacağı barədə informasiyalar var.

Paralel olaraq, Kənd Təsərrüfatı Nazirliyində də yoxlamalara start verilib. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi nazirliyin Dövlət Maşın Sınaq Stansiyasının direktoru Cavanşir Bağırov və digər vəzifəli şəxslərlə bağlı bugünlərdə cinayət işi başlayıb. Hazırda yoxlamaların dairəsi genişləndirilib. Bu yoxlamaların Z.Məmmədovla quda olan kənd təsərrüfatı naziri Heydər Əsədovla hansısa əlaqəsinin olub-olmadığı məlum deyil. Ancaq o da sirr deyil ki, Z.Məmmədovun dəstəyi ilə yüksək vəzifəyə təyin edilən H.Əsədovun fəaliyyətindən kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar razı deyillər.

Yeni antikorrupsiya tədbirləri AZAL "şefi"ni də əhatə edəcək. Son vaxtlar Cahangir Əsgərovdan da hakimiyyətin narazılığı artıb. Onun rəhbərlik etdiyi konserndə də korrupsiya ilə bağlı şok faktlar yayılır. Hakimiyyətin etibarını və dəstəyini itirən C.Əsgərovun bu dəfə "qanadının qırılacağı" barədə xəbərlər ciddiləşir. Bu yaxınlarda AZAL-da genişmiqyaslı yoxlamalara start verilib. Müxtəlif dövlət qurumlarından ibarət xüsusi komissiyanın AZAL-ın bütün fəaliyyətini təftiş etdiyi bildirilir. Yoxlamanın AZAL-ın son illərdəki bütün istiqamətlər üzrə fəaliyyətini əhatə etdiyi deyilir. C.Əsgərovun şəxsi biznesi də nəzarətə götürülüb ki, bu da yeni antikorrupsiya dalğasının "qurbanları" sırasında AZAL prezidentinin olacağını göstərir.

Prezidentin ən çox narazı qaldığı sahə sahibkarları incidən Vergilər Nazirliyi və yerli icra strukturlarıdır ki, prokurorluğun bu qurumlarla da bağlı sərt tədbirlər görəcəyi deyilir.

Yeni antikorrupsiya planlarından aydın görünür ki, hakimiyyət oliqarx-məmurların "əl-ayağını" yığmaqda qərarlıdır. Çünki oliqarx-məmurlar getdikcə hakimiyyətə problemlər yaradır, bəzi hallarda ən yüksək səviyyədə belə verilmiş qərarları ya sabotaj edirlər, ya da tabe olmurlar. Bəzi oliqarx-məmurlar isə o həddə şişib ki, özlərini çox müstəqil hesab edir, özlərinə hətta ölkə xaricində siyasi himayədar axtarır, siyasi iddiaları artır. Ən pisi odur ki, oliqaxik sistem böhran dövründə daha çox varlanmaq hərisliyindən əl çəkmir. Bu isə xalqda hakimiyyətə qarşı narazılığı artırır. Məhz həm də bu kimi səbəblərdən onların yerini göstərməyin vaxtı çatıb və prezident son müşavirədə "artıq hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq" deməklə bir daha onları xəbərdar etdi. İndi isə onların cəzalandırılması başlayır. Bu dəfə "böyük başlar" hədəfdədir...

❑ **"Yeni Müsavat"**

# Ziya Məmmədov işsiz qaldı



## Nəqliyyat Nazirliyinin daha bir mühüm səlahiyyəti alınıb DİN-ə verildi; nazirliyin işi yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanması olacaq

**Prezidentin oktyabrın 14-də imzaladığı fərmanla Nəqliyyat Nazirliyinin inzibati xətalara baxmaqla bağlı xeyli səlahiyyətləri alınaraq Dövlət Yol Polisinə verilib. Bu fərmanı avtosfer.az saytına şərh edən hüquqşünas Ərşad Hüseynov deyib ki, İnzibati Xətalar Məcəlləsinin (İXM) təfbiqinə dair fərmana edilən dəyişikliyə əsasən, əvvəllər Nəqliyyat Nazirliyinə aid qurumların baxdığı bəzi inzibati xətalara dair işlərə bundan sonra Dövlət Yol Polisi (DYP) baxacaq.**

**Ərşad Hüseynov** bildirib ki, bu o deməkdir ki, məsələn, bundan sonra yük avtomobillərinin, sərnişin avtobuslarının, taksilərin lisenziyasının olub-olmamasını nəqliyyat müfəttişləri deyil, Dövlət Yol Polisi yoxlayacaq. Eləcə də yollarda ağırçəkili avtomobillərin kütləsinin müəyyən edilməsi üçün quraşdırılan tərəzilər Dövlət Yol Polisi tərəfindən istifadə olunacaq və kütlə parametrlərini pozan sürücülər yalnız Dövlət Yol Polisi əməkdaşları tərəfindən məsuliyyətə cəlb olunacaq.

Başqa sözlə, bundan sonra taksilərin, yük avtomobillərinin və sərnişin avtobuslarının fəaliyyətinə həm sərnişin və yükdaşıma qaydalarına (lisenziyalaşdırma, vergilərin ödənilməsi, fərqlənmə nişanı və s. məsələlərə) riayət etmə, həm də yol hərəkəti qaydalarına riayət etmə baxımından yalnız Dövlət Yol Polisi nəzarət edəcək. Amma bundan ötrü müəyyən təşkilati və qanunvericilik işləri həyata keçirilməlidir. Hər halda, bu işin sonrakı gedişi yaxın gələcəkdə bəlli olacaq".

**DİN Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Kamran Əliyev** virtualaz.org saytına açıqlamasında Nəqliyyat Nazirliyinin bəzi səlahiyyətlərinin DYP-yə verilməsi barədəki informasiyanı təsdiq edib.

Qeyd edək ki, prezidentin ayarım əvvəl imzaladığı fərmanla Z.Məmmədov taksi minik avtomobilləri ilə sərnişin daşınmasına lisenziya verilməsi kimi külli miqdarda gəlirli bir sahəni "ASAN xidmət"ə dövr etməli olmuşdu. Bu qərar yanvarın 1-dən qüvvəyə minəcək. Amma bu, faktiki Z.Məmmədovun "portfelsiz nazir"ə çevriləcəyinə aydın işarə idi. Nəqliyyat Nazirliyinə tabe olan "Azərbaycan Dəmir Yolları" ASC-nin müstəqil quruma çevrilməsi ilə Z.Məmmədov faktiki "işsiz" qalmışdı. Bundan başqa, paytaxtda yol tikintisi Bakı Şəhər İcra Hakimiyyətinə, qəsəbədaxili yolların salınması bələdiyyələrə tapşırılmışdı. Yol tikintisi ilə məşğul olan "Azəryolservis"in müstəqil quruma çevrilməsi ilə bağlı proses də başlayıb.

Prezident Administrasiyasında Nəqliyyat Nazirliyinin yeni əsasnaməsi hazırlanır. Layihədə nazirliyin biznes fəaliyyətinin yasaqlanması, qurumun missiyasının yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanması ilə məhdudlaşdırılması nəzərdə tutulur. Məlumata görə, Prezident Administrasiyasında işçi qrup NN-in əsasnaməsinin yeni layihəsini hazırlayır və yaxın vaxtlarda prezidentə təqdim ediləcək. Yeni layihəyə görə, Nəqliyyat Nazirliyinin işi yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanmasından ibarət olacaq. NN Energetika Nazirliyi kimi, təsərrüfat fəaliyyəti ilə məşğul olmayan struktura çevriləcək. Hazırda xaricdə müalicə olunduğu deyilən nəqliyyat nazirinin oktyabrın son ongünlüyündə işə çıxacağı iddia edilir. Amma belə görünür ki, nazir qayıdanadək "lələ köçüb yurdu qala bilər".

❑ **"Yeni Müsavat"**



**“Azərbaycan rəhbərliyi çalışacaq ki, siyasi, eyni zamanda siyasi təhlükəsizlik baxımdan Rusiya ilə yaxın münasibətlərdə olsun, bu zaman ticarət və iqtisadi sahədə güzəştlərə gedəcək. Amma hərbi və hərbi-təhlükəsizlik sahəsində neytrallığını qorumağa çalışacaq. Buna Azərbaycanın potensialı yetəcəkmi, yaxud hara qədər yetəcək, bunu zaman göstərəcək”.**

# Partiya sədri Azərbaycanı gözləyən təhlükələrdən danışdı

## Sülhəddin Əkbər: “ABŞ, Avropa Birliyi, Türkiyə və İsrail Azərbaycanda Rusiyanın hərbi iştirakının legitimləşdirilməsinə imkan verməməlidir”

**Azad Demokrat Partiyasının sədri Sülhəddin Əkbər** bu fikirləri Azərbaycan ətrafında yaşananları şərh edərkən “Yeni Müsavat”a açıqlamasında bildirdi. Partiya və fərd olaraq qarşıdakı parlament seçkilərində iştirak etməməsi barədə danışan S.Əkbər bunu seçkidə perspektiv görməməsi ilə izah etdi: “Hələ 2010-cu il seçkilərində Azərbaycanda faktiki olaraq təkpartiyalı parlament formalaşdırılmışdı. İndi isə faktiki olaraq Azərbaycanda təkpartiyalı siyasi sistem formalaşdırılıb və hakimiyyət bu sistemin qorunmasına çalışacaq”.

**S.Əkbər seçkisonrakı proseslərlə bağlı isə bunları bildirdi:** “Azərbaycanın mövcud müxalifəti ölkədəki ictimai-siyasi proseslərə təsirsiz hala gəlib. Yuxarıda dediyim tendensiyanın nəticəsində ölkədə yeni ictimai-siyasi şərait və yeni müxalifət formalaşacaq”.

**Parlament seçkiləri ərəfəsində beynəlxalq təşkilatlarla gərginliklərin yaşanması seçkisonrakı situasiyanın necə olacağı sualını ortaya çıxarır. S.Əkbər bildirdi ki, hər bir avtoritar rejimin Qərblə münasibətlərinin bəlli bir potensialı var:** “Bu potensial tükənəndən sonra münasibətlərdə durğunluq yaranır, ondan sonra isə geriləmə başlayır. Azərbaycan bu mərhələləri artıq keçdi. Azərbaycan həm ABŞ, həm Avropa Birliyi, həm də NATO ilə münasibətlərində durğunluq dövrü keçdi və artıq keçən ilin sonlarından başlayaraq, açıq şəkildə münasibətlərin pisləşməsi mərhələsinə girilib. Çünki istər NATO, istər Avropa Birliyi, istərsə də ABŞ-la münasibətlərin bundan sonrakı inkişafı ölkədə həm siyasi, həm iqtisadi, həm hüquqi, həm də digər sahələrdə demokratik islahatların aparılmasını tələb edir. Bu, eyni zamanda ölkədə azad və ədalətli seçkilərin keçirilməsini tələb edir. Hansı ki, hakimiyyət buna öz iqtidarına bir təhdid kimi baxır. Ona görə də iqtisadi, xüsusən də enerji və enerji təhlükəsizliyi məsələlərində ABŞ, Avropa Birliyi, Türkiyə və İsraillə yaxınlıq qorunub-saxlansa da, siyasi və təhlükəsizlik sahəsində Rusiya ilə daha sıx münasibətlər baş verir. Son zamanlar ticarət - iqtisadi münasibətlərin də yaxşılaşması müşahidə olunur. Yeri gəlmişkən, Putinin son açıqlamasına görə, Azərbaycanla Rusiya arasındakı ticarət dövriyyəsi artıq 4 milyarda çatıb. Bu çətin şəraitdə Rusiyaya investisiyaların dayandırıldığı bir vaxtda, Azərbaycan şimal qonşumuza investisiya qoymağa başlayıb. Bu baxımdan beynəlxalq münasibətlərdəki bu meyllər yaxın perspektivdə Azərbaycan hakimiyyəti tərəfindən gözlənəcək. Mən bu strateji qaşqırdurmanın həllinə qədər Azərbaycanın bu siyasətini davam etdirəcəyini və gözləmə mövqeyində duracağını düşünürəm. Yəni Rusiyaya doğru reveranslar davam edəcək, amma hüquqi baxımdan fiksə olunmuş, geriyə dönüşü olmayan münasibətlərdən Azərbaycan qaçacaq”.

**S.Əkbər Gömrük İttifaqı, “rus sülhməramlıları” ilə bağlı gündəmdəki mövzulara da toxundu:** “Azərbaycanı hüquqi baxımdan öhdəliklərlə bağlayan münasibətlərdən rəsmi Bakı mümkün qədər qaçmağa çalışacaq. Amma reveranslar davam edəcək. Siyasi, mədəni, iqtisadi münasibətlər inkişaf edəcək. Rusiya çox təzyiq edəndə lap Azərbaycanın hava məkanından istifadəyə razılıq verilməsinə qədər gediləcək. Amma Azərbaycan çalışacaq ki, hüquqi öhdəliklərlə onu bağlayacaq münasibətlərdən qaçılsın. Misal üçün, Avrasiya İqtisadi Birliyinə girmək, Azərbaycanda Rusiyanın hərbi bazasının yaradılması, Azərbaycan sərhədlərinin, xüsusilə İranla sərhədlərin Rusiya tərəfindən qorunması kimi məsələlərlə bağlı”.

**“Sülhməramlı qüvvələr” adı altında qüvvələrin bölgəyə gətirilməsinə gəldikdə, ekspert dedi ki, Rusiya Azərbaycanı şirniklendirmək istəyəcək:** “Bir neçə ətraf rayonu, yaxud bir neçə rayonun bir hissəsinin qaytarılması hesabına - hansı ki, bu, ölkənin ictimai rəyində hakimiyyətin lehinə işləyə bilər - Rusiya silahlı qüvvələrinin ”MDB sülhməramlı qüvvələri" adı altında humanitar əməliyyat keçirmək məqsədilə işğal zonasında yerləşdirilməsinə və bununla da Azərbaycanda Rusiyanın hərbi iştirakının legitimləşdirilməsinə gedilə bilər. Təbii ki, əgər Rusiyanın təzyiqləri son həddə çatarsa, Azərbaycan buna gedə bilər və bu da çox təhlükəli bir addımdır".

**Bəs vəziyyətdən çıxış yolu nədir? S.Əkbər:** “Azərbaycanın və Azərbaycan xalqının dostları, ABŞ, Avropa Birliyi, Türkiyə və İsrail Azərbaycan siyasətini koordinasiya etməlidir və Azərbaycanın Rusiyanın təsir sferasına düşməsinə, xüsusən də Azərbaycanda Rusiyanın hərbi iştirakının legitimləşdirilməsinə imkan verməməlidir”.

❑ **Cavid TURAN**

# “İndi siz deyirsiniz, biz parlamentdən o dünyaya gedəcəyik?”

## Arif Rəhimzadə: “Deputat nə yol çəkəndir, nə su çəkən...”



**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə uzunömürlü mandat sahiblərindən biridir. Növbəti dəfə namizədliyini irəli sürən komitə sədri parlamentin foyesində elə ayaqüstü suallarımızı cavablandırarkən bəzi məsələlərə aydınlıq gətirməklə bərabər, seçkilərdə iştirakla bağlı qərarına birmənalı şəkildə haqq qazandırdı.**

***- Arif bəy, beşinci dəfədir seçkilərə qatılırsınız. Yəqin ki, dördüncü, beşinci dəfə mandat alan bir sıra deputatlara cəmiyyətdəki qıcıqlı münasibətlər, mənfi fikirlərdən məlumatınız var. Bu kimi fikirləri necə qarşılayırsınız?***

- Mənfi fikirləri təbii ki, pis qarşılayıram. İş burasındadır ki, Azərbaycanda parlament təcrübəsi olmayıb. Biz hansısa bir təcrübə əldə etmişiksə, bunu, əlbəttə, saxlamaq lazımdır. Yeni adamlar gəlir, Milli Məclisin qanun-qaydasını bilmək lazımdır. Ümumiyyətlə, qanunvericilik fəaliyyəti elmi iş kimi bir şeydir və elə də asan məsələ deyil.

***- Amma belə olan təqdirdə “ömürlük deputatlar” yanaşması ortaya çıxır.***

- İndi siz deyirsiniz biz elə burdan birbaşa ora *(o dünyanı nəzərdə tutur-E.P.)* gedəcəyik? (gülür) Kimin işləmək qabiliyyəti var, kim seçilir, onlar təmsil olunmalıdır. Kimsə buna hədd qoya bilməz. Qanunvericilikdə də elə bir hədd yoxdur.

***- Heç namizədliyinizi irəli sürməmək barədə düşündünüzmü? Yaxud seçkidə iştirak qərarı verərkən ictimai rəyimi nəzərə aldınız, yoxsa hakim partiyanın rəyi sizin üçün həlledici oldu?***

- Mən partiyanın da rəyini nəzərə aldım, yerdəki münasibəti də nəzərə aldım. Üstəlik, öz səhhətimi, qüvvəmi də nəzərə alaraq seçkidə iştiraka razılaşdım.

***- İndiki seçkilərlə əvvəlki seçkilərin fərqli və oxşar cəhətləri barədə nə deyə bilərsiniz? Müşahidələr onu deyir ki, 2000-ci il seçkilərindəki rəqabət yoxdur. Bunu nə ilə əlaqələndirirsiniz?***

- İş burasındadır ki, o zaman Milli Məclis də tamamilə başqa idi. O vaxt xüsusi olaraq nüfuz tələb olunmurdu, yerindən duran hər kəs deyirdi ki, “mən deputat olacağam”. Elə bil ki, deputatın yeganə işi parlamentdə oturub əl qaldırmaqdan, səs verməkdən ibarətdir. İndi insanlar deputat fəaliyyəti haqda daha yaxşı bilirlər. Odur ki, hər adam bu məsələyə girişmək istəmir, namizədliyini vermir. Adamlar öz potensialını götür-qoy edir, düşünür ki, gedib orda bir iş görəcək, ya yox. Bunu dəqiqləşdirəndən sonra bu işə qol qoyurlar. Mən deməzdim ki, bu dəfə namizədlərin sayı əvvəlki illərdən azdır. Məsələn, mənim dairəmdə 10 nəfər namizədliyini verib.

***- Rəqibləriniz arasında müxalifət partiyalarının üzvləri də var?***

- Var. Müxalifət də var, müstəqil də, heç bir partiyada olmayanlar da. İndi seçkilərə daha düşünülmüş münasibət var. Özü də tək namizədlərin deyil, seçicilərin də düşünülmüş münasibəti var. İnsanlar indi daha yaxşı dərk edirlər ki, deputat nə yol çəkəndir, nə su çəkəndir, nə də hansısa böyük iqtisadi işi həll edəndir. Yəni deputatın əsas vəzifəsi qanunvericilik prosesində iştirak etməkdir, ikincisi də nəzərdə tutulan hansısa məsələlərlə bağlı hər hansı bir mərhələdə ləngitmə olanda, ya həlli yaddan çıxanda deputat o məsələləri lazımi yerdə demək iqtidarındadır. Bu zaman da icra orqanları ilə birgə işləyə, məsələlərin həlli istiqamətində səlahiyyət sahiblərini səfərbər etmək imkanları var. İnsanlar da məsələyə belə yanaşırlar.

***- Ehtiyat eləmirsiniz ki, digər 9 namizəd sizə qarşı koalisiya yarada bilər?***

- Yox, niyə problem yaradılmalıdır? Yəni onlar bir blok olub mənə ciddi problem yaradacaqlar? Hərə özü haqqında fikirləşir, öz kampaniyasını aparır. Hesab edirəm ki, mən orda olanların heç birindən geri deyiləm.

***- Sizə elə gəlmirmi ki, indi Milli Məclisin qəbul etdiyi qanunların icrasına nəzarət etmək funksiyası arxa plana keçib?***

- Yox, Milli Məclisin qanunların icrasına nəzarət etmək səlahiyyəti var. Qanunlar işləmirsə... Deputat elə ondan ötrüdür ki, bu barədə lazımi yerdə danışır. İkincisi də araşdırır ki, nəyə görə qanun işləmir. Ola bilsin hansısa qüsur var, nəsə nəzərə alınmalıdır. Bax, onda çalışır ki, qanunvericiliyə düzəliş versin.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

**Bakı Beynəlxalq Avtovağzalında baş verən sürüşmə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovu yenidən hədəfə gətirib. Məlum olub ki, ölkə əhəmiyyətli bir obyektin sürüşməsinə səbəb icra başçısının göstərişi ilə ərazidə yaradılan süni yamaclar, təpəciklər və orada əkilmiş yaşıllıqların suvarılması olub.**



# Oddan çıxan icra başçısı indi də suya "düşdü"

## Yanan binadan sonra Binəqədinin icra başçısı indi də avtovağzalın çöküşünə görə hədəfə gəlib





Hadisənin səbəblərini modern.az-a şərh edən avtovağzal kompleksinin baş mühəndisi İlham İbişov bir çox yollarda salınan yamacların təhlükə mənbəyi olduğunu diqqətə çatdırıb. Avtovağzal kompleksinin yanından keçən Bakı-Sumqayıt yolunun kənarındakı yamacları ərazinin aid olduğu Binəqədi Rayon İcra Hakimiyyəti salıb.

"Bakı-Sumqayıt yolunun sürüşməyə məruz qalmasının əsas səbəbi yol yamacının kənarlarında salınan yaşıllaşdırma, balaca təpəciklərin hər gün suvarılmasıdır. Suyun axma yeri olmadığından yol yamacını yuyur. Bu cür yamacların yol kənarında salınması yola ziyandır. Yamaclara düşən suyun başqa yerə axıdılmasına müəyyən bir konstruktiv qərar verilməlidir. Yəni yola axıdılan su kənarlaşdırılmalıdır. Həmçinin yola düşən yağış suları da kənarlaşdırılmayıb. Neçə həftədir ki, həmin ərazi suvarılmır. Amma yamacların dibi hələ də sudur.

Əlbəttə ki, bu, bir-iki günün işi deyil. Fasiləsiz olaraq suvarılma işlərinin görülməsi yol yatağının çökməsinə gətirib çıxarır. Birinci məsələ odur ki, həmin yamaclar mütləq sökülməlidir. Əvvəllər yola düşən suyu ərazidən uzaqlaşdırmaq üçün su kanovu olurdu. İndi isə yoxdur. Ona görə də bütün axıdılan su gəlib Bakı-Sumqayıt yolunu yuyub aparır. Hər dəfə bir-iki millimetr sürüşmə davam edir. Hələlik müvəqqəti möhkəmləndirmə işi gedir. Texniki qərardan sonra ümumi bərkitmə işi aparılacaq" deyə, mühəndis bildirib.

**İlham İbişov bildirib ki, onda olan məlumata görə, bu yamacların salınmasının yola ziyan vurması barədə Fövqəladə Hallar Nazirliyindən Binəqədi Rayon İcra Hakimiyyətinə nə vaxtsa etiraz məktubu da göndərilib:** "Ola bilsin ki, dəqiq deyil. Amma eşitmişəm ki, yol kənarında salınan təpəciklər yolun yatağınının yuyulmasına gətirib çıxara bilər".

**İ.İbişov kimin məsuliyyət daşıdığını deyə bilməyəcəyini bildirib:** "Tam məsuliyyəti kim daşıyır, deyə bilmərəm. Hələ ki müayinə qrupu işləyir. Ərazi Fövqəladə Hallar və Ekologiya nazirliklərinin nəzarəti altındadır. Hər gün əraziyə baxış keçirilir, ölçülər aparılır. Müəyyən mayaklar qoyulub. Birbaşa informasiya müəyyən yuxarı instansiyalara çatdırılır. Bu ərazi tam nəzarət altındadır. Torpaqdan nümunələr götürülüb. Yəqin ki, sabaha texniki qərar veriləcək".

**Baş mühəndis deyib ki, yolun sürüşməsi təhlükəsi var:** "Vaxtında qarşısı alınmasa, bu sürüşmə arzuolunmaz hadisəyə çevrilə bilər. Burda gün ərzində iş gedir".

Yada salaq ki, mühəndisin qeyd etdiyi yamaclar, yol kənarındakı təpəciklər 2012-ci ildə salınıb. Həmin il aprelin 26-da Binəqədi rayonuna icra başçısı təyin edilən Xaləddin İsgəndərovun ilk işi Azadlıq prospekti boyunca binaların poliuretan örtüklərlə üzlənməsi və paralel olaraq Bakı-Sumqayıt yolunun kənarında təpəciklərin salınması olmuşdu. Bu il mayın 19-da poliuretan üzlüklərlə üzlənmiş binalardan biri yandı. Azadlıq prospektində yerləşən 16 mərtəbəli binanın üzlüyünün bir anın içində yanması 5-i azyaşlı olmaqla, 16 nəfərin ölümünə, 60-a yaxın bina sakininin yaralanmasına səbəb oldu. Olaydan dərhal sonra prezident yanında xüsusi müşavirə keçirildi, yanğında suçu olan hər kəsin həbs olunması tapşırığı verildi. İş üzrə istintaq bu gün də davam edir. Rəsmi olaraq açıqlanmasa da, iş üzrə dindirilənlərdən birinin də icra başçısı olduğuna şübhə yoxdur. Üstəlik, bir qədər əvvəl məlum olub ki, binanın üzlənməsinə dair sənədləri də istintaqçılar əldə ediblər. Həmin sənədlər Binəqədi İcra Hakimiyyətindən istintaqa təqdim edilmirmiş...

Bu dəhşətli olayla bağlı əllər X.İsgəndərovun yaxasından çəkilməmiş onun tikdirdiyi Binəqədidəki yamac və təpəciklərin böyük fəlakətə səbəb olacağı məlum oldu.

**E.HÜSEYNOV**



# Yunusların məhkəməsi 3 dəqiqəyə bitdi

**Oktyabrın 15-də həbsdə olan hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun apelyasiya şikayəti üzrə ilkin baxış iclasi davam etdirilib. Proses 3-4 dəqiqə çəkib.**

Hakim Vuqar Məmmədov AzadlıqRadiosuna bildirib ki, vəkil Elçin Sadıqov dünən Bakı Apelyasiya Məhkəməsinə vəsatət təqdim edib və Bakı Ağır Cinayətlər Məhkəməsindəki prosesin protokolları ilə tanış olmaq üçün vaxt istəyib. Hakim buna şərait yaratmaq üçün prosesi oktyabrın 20-dək təxirə salıb.

Leyla Yunus məhkəməyə gətirilərkən prosesi izləməyə gələnlərə bildirib ki, almaniyalı həkim avqustun 14-də ona 2 aylıq müalicə yazıb və bu müddət ərzində onun təcridxananın müalicə hissəsində saxlanılmasını istəyib. Amma buna baxmayaraq, 6 gündən sonra onu yenidən təcridxanaya qaytarıblar: "Ciyərim parçalanır, bunların təyin etdiyi 2 həkim mənimlə cəllad kimi davranır, müalicəmə imkan verilmir". Qeyd edək ki, şikayət Bakı Ağır Cinayətlər Məhkəməsinin avqustun 13-də çıxardığı hökmdəndir. Məhkəmə Leyla Yunusu 8 il yarım, Arif Yunusu isə 7 il azadlıqdan məhrum edib.

Onlar dələduzluq, qanunsuz sahibkarlıq, vergidən yayınma və sənədlərin saxtalaşdırılmasında ittiham olunurlar. Onlara qarşı dövlətə xəyanət ittihamı isə ayrıca icraata götürülüb.

Bir sıra beynəlxalq təşkilatlar Leyla və Arif Yunusların həbsinin siyasi motivli olduğunu deyir və Azərbaycan hakimiyyətini onları azad etməyə çağırırlar. Azərbaycan hökuməti isə ölkədə siyasi və ya vicdan məhbusu olmadığını deyir.

# Xədicə İsmayılın məhkəməsi oktyabrın 29-na qaldı

## Məhbus jurnalist şüşə kabinədən çıxarılmadı

**Oktyabrın 15-də Bakı Apelyasiya Məhkəməsində jurnalist Xədicə İsmayılın apelyasiya şikayəti üzrə hazırlıq iclası keçirilib. Virtualaz.org saytının prosesdə iştirak edən müxbiri xəbər verir ki, məhkəmə prosesi hakim İlqar Murğuzovun sədrliyi ilə keçirilib.**



Xədicə İsmayıl

Hakim öncə Xədicə İsmayılın məhkəmə tərkibinə etirazının olub-olmadığını soruşub.

X.İsmayıl isə suala belə cavab verdi: "Onsuz da ədalətli hakim yoxdur".

Daha sonra jurnalist vəkil Yalçın İmanovun onun hüquqlarını müdafiə etməsi ilə bağlı şifahi vəsatət verib.

Vəkil Fəxrəddin Mehdiyev jurnalistin şüşə kabinədən çıxarılması, həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması və məhkəmənin qismən istintaqla aparılması ilə bağlı vəsatətlər qaldırsa da, onların heç biri təmin olunmayıb. X.İsmayılın buna münasibəti belə olub: "Birinci instansiya məhkəməsi mənim günahsız olduğumu bilirdi və bilərəkdən belə qərar çıxardı. Sizdən də eyni şeyi gözləyirəm. Qərarı nə qədər tez çıxarsanız, bu iş də Avropa Məhkəməsinə o qədər tez çıxa bilər".

X.İsmayıl istintaq zamanı hüquqlarının pozulduğunu da dedi.

Məhkəmənin növbəti iclası oktyabrın 29-u saat 15:00-a təyin olunub.

# Avropa Məhkəməsindən Azərbaycanla bağlı daha 2 qərar

**Oktyabrın 15-də Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycandan olan iki şikayət üzrə qərar qəbul edib. Vəkil Əsabəli Mustafayev bildirib ki, birinci qərar əmlak hüquqlarının pozulmasına aiddir. İkincisi vətəndaş Qafqaz Məmmədovun Bakıda keçirilən icazəsiz mitinqdə iştiraka görə 5 sutka həbsi barədədir.**

Avropa Şurasının qərarına görə, Q.Məmmədovun işində Avropa İnsan Haqları Məhkəməsinin azadlıq hüququ, ədalətli araşdırma, vəkillə təmin olunma və toplaşma azadlığı ilə bağlı 5, 6.1, 6.3 və 11-ci maddələr pozulub.

Vəkil bildirib ki, Azərbaycan hakimiyyəti Q.Məmmədova 18050 avro məbləğində kompensasiya ödəməlidir.

# Türkiyədəki konsulumuz terrora görə axtarışa verilən azərbaycanlı qadın haqda danışdı

## Həsən Zeynalov: "Ülkər Məmmədovanın Azərbaycanla bağlılıq məsələsi araşdırılır"

**Türkiyə tərəfi Azərbaycan vətəndaşlarının və ya milliyyətcə azərbaycanlı şəxslərin Türkiyədəki terror hadisələrində iştirakı ilə bağlı Azərbaycan tərəfinə heç vaxt sorğu ilə müraciət etməyib.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə Azərbaycanın İstanbuldakı baş konsulu **Həsən Zeynalov** BBC-yə bildirib. Türkiyə mətbuatı Ankarada oktyabrın 10-da baş vermiş partlayışa görə Ülkər Məmmədova adlı bir qadının da aralarında olduğu 21 nəfərin axtarıldığına dair məlumat yayıb. Həsən Zeynalovun sözlərinə əsasən, konsulluğun bir əməkdaşı "Ülkər Məmmədovanın Azərbaycanla bağlılıq məsələsini Türkiyə tərəfi ilə araşdırmaq üçün təlimatlandırılıb".

"Biz də adıçəkilən şəxsin Azərbaycanla bağlılığı məsələsinin araşdırılmasında maraqlıyıq. Ülkər Məmmədovanın azərbaycanlı ola bilmə ehtimalı yalnız bizim mətbuatda gedib. Türkiyə mətbuatında isə sadəcə, qadının ad-soyadı verilib, milliyyəti və ya vətəndaşlığı ilə bağlı heç nə yazılmayıb" deyə, baş konsul bildirib.

"Bununla bağlı müəyyən dairələrə sorğu vermişik. Bu sorğuya cavab verilməsini gözləyirik. Baş konsulluq olaraq bölgədə baş verən terror hadisələri ilə bağlı Türkiyənin hüquq-mühafizə orqanları ilə mütamadi çalışırıq" deyə, baş konsul əlavə edib.



Həsən Zeynalov

Türkiyə paytaxtı Ankarada baş vermiş iki partlayış nəticəsində 100-ə yaxın insan həlak olub. Türkiyənin baş naziri Əhməd Davudoğlunun bildirdiyinə görə, partlayışlara görə əsas şübhə İŞİD terror qruplaşmasının üzərinə düşür. İndiyədək heç bir qrup törədilmiş partlayışlara görə məsuliyyəti üzərinə götürməyib, lakin hökumət həsab edir ki, partlayışı iki intiharçı törədib.

Qeyd edək ki, oktyabrın 10-da Ankarada törədilmiş terror aktı ilə bağlı 10 nəfər həbs edilib.

Lent.az xəbər verir ki, Türkiyənin baş naziri Əhməd Davudoğlu oktyabrın 15-də verdiyi açıqlamada cinayətdə şübhəli bilinən 10 nəfərin artıq yaxalandığını bildirib.



# Siyasi oyunbazlığa son!

**Zamin HACI**
zaminhaci@gmail.com

**Qazaxdan bir satirik xəbər almışam, öncə onu paylaşım.**

Deməк, bu sazlı-sözlü rayonumuzda YAP-ın deputatxana üzvlüyünə namizədinə elə YAP özü qəribə bir qadağa qoyubdur: adama deyiblər nəbadə orda-burda namizəd olduğunu söyləyəsən. Kimdənsə səs istəməyi, seçicilərlə görüşü-zadı ümumiyyətlə ağlına gətirmə, yoxsa boğazını üzərik. Səbəb isə budur ki, yapistlərin deputatxana tərkibi üzrə qabaqcadan hazırladıqları siyahıda Qazaxdan başqa adam, bitərəf adıyla deputat qoyulmalı imiş.

Hərçənd, deputatxananın indiki tərkibi də satirik mövzular istehsalı baxımından geri qalmır. Örnək üçün, bugünlərdə orda büdcə zərfi müzakirə edilirdi.

Burda bir haşiyə çıxım. Açığı, neft borusu kəsiləndən adam bu "büdcə zərfini" daha çox "zərif büdcə" kimi oxumağa meyllənir. Nərmənazik bir şey olmaqdadır. Görün nə pis durumdur ki, deputatlar hətta öz boğazlarından kəsiblər, eşitdiyimə görə gələn il öz maaşlarının artırılmasını nəzərdə tutmayıblar. Halbuki vaxt var idi hər kvartalda maaşlarını qaldırırdılar. Hadı müəllim deyirdi, toya gedirəm, pul yazdırmalıyam. Bıdı müəllim deyirdi, seçicilərimə pampers alıram.

Uzun sözün qısası, həmin müzakirə vaxtı Səyavuş Novruzov proqram xarakterli təklif irəli sürüb. Deyib, burda bazar açmağın, büdcəni müzakirə eləməyin yeri yoxdur, cənab prezidentin Nazirlər Kabinetinin iclasındakı çıxışı bəsimizdir, biz büdcənin səsvermə düyməsini basaq, çıxsın getsin.

Bəzi geridəqalmış vətəndaşımız isə deyir bu avtoritarizm əlamətidir. Guya büdcəni müzakirə eləmək parlamentin əsas funksiyalarından biri imiş. Mənasız söhbətdir. O deyilən parlamentə aiddir. Bizimki isə Prezident Administrasiyasının təyin elədiyi düyməbasanlar federasiyasıdır. Səyavuş müəllim düz buyurur, artistlik eləmək nəyə lazım? Şimali Koreya yolunda iri addımlarla gediriksə, bizə özümüzü Gürcüstan-filan kimi aparmağın manipulyasiyası lazımdırmı? Qətiyyən lazım deyil. Səmimiyyət min dəfə gözəl şeydir.

Dünən oxudum, Putinin ardınca Kuba da Bəşər Əsədə hərbi yardım göndəribmiş. Biz niyə bu cərgədə yoxuq? Azərbaycan ordusunun Suriyada sabitliyi yaratması çox lazımdır. Hər kəs öz adamları, öz tay-tuşları, öz dostları, özünə bənzəyənlərlə oturub-durmalıdır. Yoxsa 20 ildir düşmüşük Avropanın, Amerikanın quyruğuna... Heyf o itirilən vaxtdan.

Diktatura demokratiyadan faydalı sahədir. Bir adam əlini çırpır masaya, deyir budur. Yoxsa demokratiyada gərək iclas keçirəsən, pul toplana, nəzarət ola, nə bilim, qəzet-məzet yaza... Təsəvvür elə, Avropa Məhkəməsi 2010-cu ildəki deputatxana seçkimizdə saxtakarlıqla üzləşən müxalifətçilərin şikayəti üzrə qərarı hələ indi verib! Keçən həftə 3 şikayətə görə yapistlərə 30 min avro cərimə yazıblar. A kişi, təzə seçki olacaq ey! 5 il də işə baxarlar? Bizdə hakimi gecə yarısı tumançaq yerindən durğuzsan xoruzların ikinci banınacan üç müsavatçıya əmlakı müsadirə olunmaqla on beş il, dörd cəbhəçiyə arvad-uşağı müzakirə olunmaqla güllələnmə cəzası kəsər, uf da deməz. *(Bəlkə Elnur Həsənov kimi nisbətən gənc hakimlər "Ah" deyər, ona sözüm yoxdur, imanımı yandırmayım).*

Demokratiya çox axmaq sistemdir. Diktatura isə dərhal reaksiya verir: "Əəə, tutun bını basın maşına!" Putinin Suriyaya ordu basmağı kimi. Halbuki Amerika-zad gərək bunun üçün BMT-ni yığsın, koalisiya qayırsın, nə bilim, NATO gəlsin... Nə NATO? Qaldır təyyarəni, səp bombanı. Serjantı göndər, jurnalisti təpikləyib qohum-qardaşı ilə birgə qoduqluğa bassın. Bunlara üz verdikcə adamdan astar da istəyirlər. Kərbəlayı demişkən, sabah da gəlib adamdan papaq istəyirlər.

Koppolunun urusu... *(Müəllif vəcdə gəldiyindən yazının ardını redaksiyaya göndərməyi unutmuşdur. Belə getsə növbəti yazıları onun yerinə özümüz yazacağıq - redaktor).*

# ABŞ şirkətinin sorğusu düşərgələri üz-üzə qoydu

## Müxalifət şirkətin pul müqabilində çalışdığını iddia edir; sorğu Azərbaycan-ABŞ münasibətlərinin yumşalmasına kömək edəcəkmi?

**ABŞ-ın tanınmış "Artur J. Finkelştayn & Assoşietys" sorğu şirkəti noyabrın 1-də ölkəmizdə keçiriləcək parlament seçkiləri ilə bağlı sorğu keçirib. Sorğu Azərbaycanda 28 sentyabr - 9 oktyabr tarixlərində 108 dairədə 1000 qeydiyyatlı seçici ilə üzbəüz aparılıb. Oktyabrın 14-də ABŞ şirkəti 5.1 milyon seçicini əhatə edən sorğunun nəticələrini açıqlayıb.**

Məlum olub ki, seçicilərin 82.1%-i prezident İlham Əliyevi dəstəkləyir. Sorğunun əsas diqqətçəkən məqamlarından biri qarşıdan gələn parlament seçkiləri ilə bağlı olub. "Artur J. Finkelştayn & Assoşietys"in icraçı direktoru Corc Birnbaum bildirib ki, seçicilərin 74.4%-i YAP namizədlərini dəstəkləyir, 14%-i isə seçimini hələ etməyib, dairələrin böyük əksəriyyətində Yeni Azərbaycan Partiyasının namizədlərinin uğur qazanacağı gözlənilir.

ABŞ şirkətinin sorğusu ölkəmizdə həm ciddi maraq doğurub, həm də birmənalı qarşılanmayıb. Sorğunun maraq doğurması son aylarda Azərbaycan-ABŞ münasibətlərinin soyuq olması ilə əlaqədardır. Çoxları hesab edir ki, bu sorğu hər iki ölkə arasındakı münasibətlərin tənzimlənməsi baxımından atılmış müsbət addımdır.

Sorğunun birmənalı qarşılanmamasına səbəb də nəticələrlə bağlıdır. Əsasən ölkə müxalifəti nəticələrdən narazı qalıb. Onlar ABŞ şirkətinin külli miqdarda pul müqabilində belə bir sorğu təşkil etdiyini iddia edirlər.



**Hikmət Hacızadə:** "Harada ki, insanlar qorxmur..."



**Mehman Əliyev:** "Bu, yalançı sorğudur"



**Fəzail Ağamalı:** "Nə qədər reallıq hissini itirəsən ki, nəticələrin saxta olduğunu deyəsən"

**Vaxtilə seçkiqabağı sorğular keçirən tanınmış politoloq Hikmət Hacızadə avtoritar ölkələrdə obyektiv sorğu keçirməyin mümkünsüz olduğunu söylədi:** "Çox güman ki, 1-2 min adamı sorğu-sual ediblər. Onlar beş milyon seçicini təmsil ediblər. Cəmiyyətin azad iradəsi yoxdur. İnsanlar hər şeydən qorxurlar. Bu rəqəmlər boş şeylərdir. Təşkilatın hökumət idarələrinə heç bir dəxli yoxdur. O, şəxsi biznesdir. Sorğunu standart ritorika ilə keçiriblər. Bu standart ritorika avtoritar ölkələrə yaramır. Gərək sualı xəlvətdə verəsən. Bunların ritorikası belədir ki, qəflətən evlərə gedirlər, qapını döyürlər. Tutaq ki, sual verirlər, prezidentlə bağlı. Seçici istər-istəməz razılığını bildirəcək. Harada ki, insanlar qorxmur, sorğu o ölkələrə lazımdır. Bizdə bunların heç biri yoxdur".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev sorğu keçirən ABŞ şirkətinin daha çox piar agentliyi kimi tanındığını bildirdi:** "Şirkət daha çox piar işləri ilə məşğuldur. Sorğunun kimlər arasında keçirildiyi məlum deyil. Bu informasiya mütləq verilməli idi. Rayonların adları deyilməli idi. 2013-cü ildən bu sorğu şirkəti Azərbaycanda peyda olub. O zaman APA dəvət etmişdi. Hər iki agentlik arasında müqavilə imzalanmışdı. İndi kim dəvət edib? Çünki sorğu keçirmək üçün kifayət qədər maliyyə lazımdır. O zaman bu sorğu şirkəti 90 faiz seçicinin prezidenti dəstəklədiyini elan etmişdi. Ciddi narazılıq yaranmışdı. Operativ sorğu yoxdur. İndiki nəticələri də kifayət qədər ziddiyyətlidir. Deyirlər ki, 82% prezidenti, 74% isə YAP namizədlərini dəstəkləyir. Hesab edirəm ki, YAP-ın bu qədər nüfuzunun olması mümkün deyil. Prezidentin özü belə vəziyyətin gərgin olduğunu deyir. Amma necə olur ki, sorğuda iştirak edənlər hər şeyin yaxşı olduğunu deyirlər. Hansı normal adam deyə bilər ki, düzgün istiqamətdə inkişaf edirik. Hamı ölkədə narahatdır. Vəziyyət pis istiqamətə gedir. Fevraldakı devalvasiyada vətəndaşların cibinə girdilər. Bu yalançı sorğudur. Kimin sifariş etdiyi açıqlanmalıdır. Bu şirkət pulsuz, özbaşına işləmir. Pulunu kim verib? Seçki prosesi yoxdur. Çox insan bilmir ki, noyabrın 1-də seçkidir. Tam cəfəngiyyat bir sorğudur".

**İqtidaryönlü deputat Fəzail Ağamalı sorğunun nəticələrinin düzgün olduğu qənaətindədir:** "Tam reallığı əks etdirən sorğudur. Müxalifət yenə köhnə işindədir. Nə qədər reallıq hissini itirəsən, xəstə təxəyyüldə olasan ki, nəticələrin saxta olduğunu deyəsən. Sorğunu keçirən şirkət kifayət qədər tanınıb. Azərbaycan xalqı bu gün ölkə prezidentinin yanındadır. İlham Əliyevin xalq içərisində böyük reytinqi var. Dünyada gedən proseslərin fonunda ölkəmizin qalib, inkişaf mərhələsində olması göz önündədir. Xalq bunları obyektiv olaraq qiymətləndirir. Cənab prezidentə sadiq olan komanda var. Daxildə sabitlik var. Neftin qiymətinin aşağı düşməsi müəyyən maliyyə çətinlikləri yaratsa da, bizdə başqa ölkələrdən fərqli olaraq, devalvasiya gözlənilmir. Manat öz dəyərini saxlayır. Azərbaycan haqqında deyilən bəzi fikirlər iftiradır. ABŞ şirkətinin sorğusunda İlham Əliyevin real gücə malik olması obyektivlikdən başqa bir şey deyil. Amerika özü üçün müəyyənləşdirdi ki, xalq prezidentlə həmrəydir. Azərbaycan ABŞ-la münasibətlərini korlamır və əminəm ki, bu niyyətdə də deyil. Çünki dövlətin başında İlham Əliyev kimi peşəkar, siyasəti dərindən bilən bir şəxs dayanıb. Ölkə başçısı nəinki ABŞ-la, dünyanın ən kiçik ölkəsi ilə belə ikitərəfli əməkdaşlığa üstünlük verir. Əgər ABŞ erməni lobbisinin təsiri altında siyasətini qurursa, bu, ölkəmizin günahı deyil. Bu, Amerikanın bizə olan qərəzli münasibətidir. Azərbaycan müstəqil siyasət yeridir, heç bir ölkənin təsir gücündə olmaq istəmir. Münasibətlərin bu və digər formada kəskinləşməsində Azərbaycanın zərrə qədər günahı yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Avropa Məhkəməsindən ermənilərə "soyqırım" zərbəsi

## Qərara əsasən, 1915-ci hadisələrini "soyqırım" deyil, "qətliam" olaraq göstərən Vətən Partiyası lideri Doğu Perinçekə cəza verən İsveçrənin haqsız olduğu təsdiqlənib

**Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) "Doqu Perinçek İsveçrəyə qarşı" işi üzrə qərarını açıqlayıb. "AzərTAc" xəbər verir ki, iclasda "Doqu Perinçek İsveçrəyə qarşı" işi üzrə AİHM-in 17 dekabr 2013-cü il tarixli qərarından İsveçrə hökumətinin apelyasiya şikayətinə dair qəti qərarı oxunub.**




Qərara əsasən, 1915-ci hadisələrini "soyqırım" deyil, "qətliam" olaraq göstərən Vətən Partiyası lideri Doğu Perinçekə cəza verən İsveçrənin haqsız olduğu təsdiqlənib.

AİHM-in Böyük Palatası İsveçrənin apelyasiya şikayətini rədd edib və əvvəlki qərarı dəyişməz saxladı. Həmin qərara görə isə deyilirdi ki, hüquqi müstəvidə təsdiq edilmiş Holokost faktından fərqli olaraq "erməni soyqırımı" narrativi tarixi fakt deyil, rəydir (özü də əsla ümumi və əsla yeganə rəy deyil), akademik dairələrdə bu məsələ barəsində konsensus əldə edilməyib və çətin ki, əldə ediləcək, əks fikir söyləməyə görə hər hansı cinayət təqibi isə Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin pozulması deməkdir.

Xatırladaq ki, o vaxt türkiyəli siyasətçi İsveçrə hökumətinə qarşı məhkəmə iddiası qaldırmışdı. İsveçrə bu işi biabırçı şəkildə uduzmuşdu.

Hollivud ulduzu Corc Kluninin həyat yoldaşı, əslən Livandan olan britaniyalı hüquqşünas Amal Kluni 2015-ci il yanvarın 28-də AİHM-in ali şikayət orqanının iclasında üçüncü tərəf kimi Ermənistan hökumətinin maraqlarını təmsil edib.

Onu da qeyd edək ki, AİHM-in çoxillik praktikasında Avropa Şurasının üzvləri olan dövlətlər tərəfindən məhkəmənin qərarlarının icra edilməməsi ilə bağlı heç bir hal olmayıb. Əks təqdirdə, Avropa Şurasının nizamnaməsinə uyğun olaraq bu, həmin dövlətin Avropa Şurasında üzvlülüyünün dayandırılmasına və son nəticədə Nazirlər Komitəsinin qərarına uyğun olaraq həmin dövlətin Avropa Şurasının tərkibindən xaric edilməsinə gətirib çıxara bilər.

Beləliklə, bu gündən etibarən İsveçrə Doqu Perinçekin təqsirkar hesab edilməsi barədə özünün əvvəlki qərarını ləğv etməli və ona tam bəraət verməlidir.

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

# Azərbaycana qarşı Putinin növbəti planı "göydən" gəldi



## Putin rusiyalı məmurlara Avrasiya İqtisadi İttifaqına daxil olmayan ölkələrin aviaşirkətlərinin xidmətlərindən istifadə etməyi niyə qadağan edib?

**Rusiya prezidenti Vladimir Putin qonşuluğunda yerləşən dövlətləri narahat edəcək sərəncam imzalayıb. Şimal qonşumuzun dövlət başçısı rusiyalı məmurlara Avrasiya İqtisadi İttifaqına daxil olmayan ölkələrin aviaşirkətlərinin xidmətlərindən istifadə etməyi qadağan edib.**

Sərəncama əsasən, məmurlar yalnız Rusiya aviaşirkətlərinin, habelə Avrasiya İqtisadi İttifaqı ölkələrinin aviaşirkətlərinin xidmətlərindən yararlana bilərlər.

Bəzi ekspertlər hesab edirlər ki, Putinin bu sərəncamı Avrasiya İttifaqına daxil olmayan ölkələrə təzyiq vasitələrindən biridir. Sərəncamı mesaj kimi də qəbul etmək olar. Rusiya prezidenti üstüörtülü şəkildə Azərbaycan daxil, qonşuluqdakı digər dövlətləri Avrasiya İttifaqına qoşulmağa çağırır.

Rusiyanın dövlət başçısının sərəncamının AZAL-a təsirsiz ötüşməyəcəyini düşünənlər də az deyil.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, sərəncam Avrasiya İttifaqına daxil olmayan keçmiş SSRİ dövlətlərinə təzyiq vasitəsidir:** "Putin Sovet İttifaqını bərpa etmək istəyən insanlara rəhbərlik edən ölkə başçısıdır. Onun son zamanlardakı bütün addımları Rusiyanın möhkəmləndirilməsi, SSRİ-nin bərpası istiqamətində gedir. Avrasiya İttifaqının yaranması da məhz bu məqsəddən doğur. Bu sərəncam Azərbaycana və Avrasiya İttifaqına daxil olmayan digər keçmiş sovet ölkələrinə təzyiq vasitəsidir. Hesab edirəm ki, hakimiyyətin bu sərəncama kəskin reaksiyası olmalıdır. Azərbaycana təzyiq kimi qəbul olunmalıdır. Dünya Rusiyaya təzyiq edir. Azərbaycanın parlament nümayəndələri Avropa Şurasında Rusiyanın əleyhinə olan məsələdə onları müdafiə etdilər. Nəticəsi göz qabağındadır".

**İqtidaryönlü deputat Zahid Oruc hər bir dövlət başçısının öz ölkəsinin mənafeyindən çıxış etdiyini söylədi:** "Regional və beynəlxalq vəziyyət elədir ki, amansız savaş gedir. Dövlət rəhbərləri müxtəlif vasitələrə əl atmağa məcbur olurlar. Putin öz ölkəsi üçün doğru saydıqlarını edir. Qeyd etdiyiniz məsələnin əsas mahiyyəti Azərbaycan və bu kimi ölkələr deyil. Burada əsas hədəf Qərb ölkələri ilə məlum istiqamətdə aparılan vuruşlardır. Rusiya hava daşınmalarında mərkəzi nöqtələrdən biridir. Rusiyanın uçuşunu həyata keçirən şirkətlər heç də bütün ölkələri əhatə etmirlər. Bununla Avrasiya İttifaqının reytinqini qaldırmaq çox çətindir. Bunun üçün iqtisadi azadlıqlar bərqərar olmalıdır".

**Politoloq Natiq Miri bildirdi ki, Putinin sərəncamı Avrasiya məkanının önəmini artırmaq üçün düşünülmüş bir addımdır:** "Təzyiq xarakterli addım ola bilməz. Çünki bu məkanda Azərbaycandan başqa digər ölkələr də var. Azərbaycana qarşı siyasi-iqtisadi yöndə təzyiq xarakterinin olduğunu düşünmürəm. Azərbaycana sərnişin daşımada təzyiq etməyə ehtiyac yoxdur. AZAL şirkəti apardığı siyasətlə özünü müflis duruma gətirib. Bu baxımdan AZAL-la uçmaq istəyənlərin sayı azalmaqdadır. AZAL regionda bəlkə də ən bahalı sərnişindaşıma subyektidir. Şirkətin özündə ciddi islahatların aparılmasına ehtiyac var. Bu baxımdan sərəncamı ölkəmizə qarşı təzyiq xarakteri kimi qəbul etmirəm. Siyasi-iqtisadi yöndə təzyiqlər Rusiyanın əlində kifayət qədər var. Bunu hələ ki tətbiq etmək istəmir".

**AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski Rusiya prezidentinin sərəncamının onlara təsir etməyəcəyini bildirdi:** "Biz rusiyalı məmurlara Avrasiya İqtisadi İttifaqına daxil olmayan ölkələrin aviaşirkətlərinin xidmətlərindən istifadə etmək qadağasının "Azərbaycan Hava Yolları" (AZAL) şirkətinə hər hansı bir təsir göstərəcəyini gözləmirik.

Rusiyalı məmurlar rəsmi səfərə gələrkən AZAL-dan deyil, prioritet olaraq öz yerli aviaşirkətlərindən istifadə edirlər.

Lakin rusiyalı məmurlar şəxsi və turizm məqsədilə səfər edərkən AZAL-ın xidmətlərindən istifadə edirlər. Biz ümid edirik ki, onlar bizim xidmətlərimizdən istifadə etməyə davam edəcəklər".

❑ **Cavanşir ABBASLI**

## Putinlə Nazarbayev Xəzərin dibini bölüşdürdü

**Rusiya və Qazaxıstan prezidentləri Vladimir Putin və Nursultan Nazarbayev yeraltı sərvətlərin istifadəsi üzrə suveren hüquqların həyata keçirilməsi üçün Xəzər dənizinin şimal hissəsinin dərinliyinin bölüşdürülməsi haqqında iki ölkə arasında bağlanmış 6 iyul, 1998-ci il tarixli sazişə dair protokolda dəyişikliklərin edilməsi barədə protokol imzalayıblar.**

Virtualaz.org saytı xəbər verir ki, məlumatı "RİA Novosti" yayıb.

Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bundan əvvəl bəyan etmişdi ki, bu gün imzalanan sənəd "Mərkəzi" neft yatağının birgə işlənməsi məsələlərinin tənzimlənməsini nəzərdə tutur.

Qeyd edək ki, V.Putin hazırda Qazaxıstanda dövlət səfərindədir. Onun səfəri iki gün çəkəcək. Putin sabah Astanada MDB ölkələri dövlət başçılarının və Avrasiya İqtisadi Birliyi şuralarının iclaslarında iştirak edəcək. Onun Astanada Belarus prezidenti Lukaşenko ilə təkbətək görüşü də nəzərdə tutulub.



# Yeni hökumət Türkiyədə axan qanı durdura biləcəkmi...

## Qabil Hüseynli: "Ərdoğan şüşədən özü buraxdığı cini indi tutub şüşəyə salmalıdır, yoxsa..."

**Türkiyədə 1 noyabr parlament seçkiləri yaxınlaşdıqca ölkədə siyasi gərginlik daha da artır. Qardaş ölkədə seçki kampaniyası başlayandan demək olar ki, hər gün terror aktları həyata keçirilir. Türkiyə seçkiyə qanlı hadisələrin müşayiəti altında gedir. Sadə insanlar seçkilərdə yeni hökumətin qurulacağına və bundan sonra axan qanın dur-durulacağına ümid edirlər.**

Bəs 1 noyabr seçkilərindən sonra Türkiyəni nə gözləyir, yeni qurulacaq hökumət Türkiyədə axan qanı durdura biləcəkmi?

**Politoloq Qabil Hüseynli** bildirdi ki, 13 ildir hakimiyyətdə olan AKP bütün qüvvəsini təkbaşına iqtidar olmağa qoyub. Bunun naminə hətta seçkilərin qeyri-şəffaflığı da nəzərə çarpa bilər. AKP-nin indiki səyləri ona yönəlib ki, HDP-nin səslərini qoparsın və bu partiyanı baraj altında qoysun: "Açığını deyim ki, bunu Türkiyənin maraqları da tələb edir. Çünki bu gün ölkədə siyasi vəziyyəti gərginləşdirən əsas qüvvə HDP, PKK və onların ətrafında olan müxtəlif solçu partiyalardır. Bax, bu nöqteyi-nəzərdən mənə elə gəlir ki, yerlərdəki inzibati resurslar da AKP-yə işləyəcək və onun təkbaşına iqtidar olması üçün səy göstərəcək. Bu gün yaranmış ehtirasları söndürmək, adamları vahid bir istiqamətə yönəltmək üçün eyni məqsədə xidmət edən güclü hökumət və bu hökumətlə bir tandemdə hərəkət edən prezidentin olması vacibdir. Ən azı bir-iki il üçün bu cür olmalıdır. Yalnız bu halda Türkiyədə sabitlik yarana bilər. Düzdür, bu elə də asan başa gələn məsələ deyil, yenə də təxribatlar, terror hadisələri törədilə bilər, amma hər halda, birpartiyalı sistem əsasında qurulan iqtidar çətinliklərin öhdəsindən gələ və seçkilərdən bir az sonra situasiyanı nəzarət altına bilər".

**Politoloq xatırlatdı ki, hazırkı vəziyyətə oxşar vəziyyət 1990-cı illərin əvvəllərində də Türkiyədə yaşanmışdı:** "O zaman Süleyman Dəmirəl prezident idi, Tansu Çillər hökumətdə idi. Çoxları iddia edirdi ki, bu tandemin Türkiyəni idarə etməsini PKK qətiyyən qəbul etməyəcək və PKK-nın istədiyini edəcək. Lakin hökumət çox ciddi tədbirlərə əl atdı və qısa müddətdə situasiyanı tam nəzarət altına aldı. Başa düşürəm, indi Ərdoğan özünü tükətmiş siyasi liderdir, Davudoğlu da reytinqini itirib, amma onların siyasi səhnədən uzaqlaşması vəziyyəti daha da dramatikləşdirəcək. Kim nə deyir desin, bu saat ölkənin taleyi həll olunursa, demokratiya, insan haqları kimi məsələlər ikinci-üçüncü dərəcəli əhəmiyyətə malik olmalıdır. Birinci növbədə ölkədə möhkəm intizam, qayda-qanun, mərkəzdənqaçma meyllərinin dayandırılması, terror aktlarının qarşısının alınması, daxili siyasi sabitliyin təmin edilməsi lazımdır. Bunu isə nə Kamal Kılıçdaroğlu, nə Dövlət Baxçalı, nə də Səlahəddin Dəmirtaş edə bilər. Ona görə də dövlətin ali maraqları tələb edir ki, təkbaşına iqtidar idarəçiliyi hələ qalsın. Mənim zənnimcə, seçkidən sonra HDP-nin bir çox önəmli fiqurları məhkəmə qarşısında cavab verməli olacaq. Bu dəfə PKK ilə ölüm-dirim savaşına çıxılıb və bu savaş başa çatdırılmalıdır. Yarımçıq qoyulsa, bu, Türkiyənin çox ciddi məğlubiyyətinə səbəb olacaq".

**Q.Hüseynlinin sözlərinə görə, bir məsələ tam aydındır ki, 1 noyabr seçimlərində qurulacaq hökumət heç də Türkiyədə axan qanı qısa zamanda durdura bilməyəcək. Buna bir müddət lazım olacaq:** "Çünki artıq Tayyib Ərdoğan cini şüşədən buraxıb. Ərdoğanın "kürd acılımı", "erməni acılımı" siyasəti Türkiyəyə çox böyük zərbələr vurub və bu gün həmin zərbələrin acısı yaşanır. İndi Ərdoğan buraxdığı cini özü tutub şüşəyə salmalıdır, səhvini düzəltməlidir. Ərdoğan ya Türkiyə xalqı və dövləti qarşısında öz yanlışlığını, günahını qanı ilə də olsa yuyacaq, ya da altından çıxa bilməyəcəyi çox böyük məsuliyyət daşıyacaq".

❑ **Etibar SEYİDAĞA**



# Yetim uşaqların efirdə diləndirildiyi günlərdə hardaydın, ay MTRŞ?

**Samir SARI**

**Uzun illər milli televiziyalardakı verilişlərdə yer alan biabırçılıqlardan, bayağılıqdan, şitlikdən, düşüklükdən, əttökənlikdən o qədər danışdıq, yazdıq ki, axırda MTRŞ bu cəncələ bir əncam çəkmək istəyir.**

Hərçənd MTRŞ düz 15 il gecikib. Televiziyaların zayı o vaxtdan çıxmağa başlamışdı. Ancaq insaf və ədalət naminə deyək ki, 13 yaşlı MTRŞ 15 il öncə teleməkanda çəki-düzən yarada bilməzdi, sadə bir səbəbdən ki, özü hələ yaranmamışdı.

Bir neçə ili də MTRŞ-nin yeni yarandığı illərdəki formalaşma, strukturlaşma prosesinə görə keçək, amma 2005-ci ildən başlayaraq MTRŞ ayrı-seçkilik etmədən indi etdiyi kimi etsəydi, telekanalları cərimələyə-cərimələyə bir tele-əndazə yaratsaydı, belə olmazdı.

Məsələn, 6-7 il öncə “Space” telekanalı kimsəsiz uşaqları toplayıb “Sən bir nəğmə, mən bir nəğmə” adlı, əslində isə “Sən bir yetim, mən bir yetim” məzmunlu musiqi yarışması keçirəndə, xalqı ağlada-ağlada, aldada-aldada SMS dilənçiliyi edəndə bu işə bir əncam çəkilməliydi.

O haqq-hesab bu səhər işə gələndə sırf İbrahim Tatlısəsin yanıqlı-yanıqlı oxuduğu “Anam, anam” şarkısını eşidərkən və bir az sonra saytlarda MTRŞ-nin bəzi telekanallara irad tutduğu barədə oxuyarkən yadıma düşdü. Bu mövzuda o vaxtlar yazmışdım, indi bir daha təkrar etməkdə yarar var.

Dediyim kimi, kimsəsiz uşaqlar arasında yarışma keçirirdilər. Yarışmaya cəlb olunan uşaqların çoxunun səsi yox idi. Ancaq onların hərəsinə bir yanıqlı şarkı əzbərlədib oxudurdular, sonra kövrələ-kövrələ xalqdan bu uşaqlara SMS istəyirdilər. Özləri istəməyə qane olmurdular, yazıq kimsəsiz körpələri də öyrədib camaatdan SMS diləndirirdilər.

“Anam-anam”ı da həmin yarışmada Fərid adlı bir oğlan oxudu. Pis oxumadı. Şarkının sözləri də beləydi: “Ağlarsa, anam ağlar ardımdan, göylərdən ağıt yağar yağmurla. Dost üzlü yalançılar qapımda, yalnızlıq çırıl-çıplaq qoynumda. Gül çiçək qoxan yanaqları, ninniylə umud verən dodaqları, heç bir şeydə yox ana sıcaqlığı. Anam, anam, anam, qərib anam, anam, sən yoxsan yanımda, kimə dərd yanam”. Üstəlik şarkının melodiyası da həzin idi. Fərid bu mahnını sakit şəkildə oxusa da, studiyaya toplaşan insanlar, əsasən də qadınlar ağlaşdılar. Mahnı bitdikdən sonra aparıcı kədərli səslə dedi: “Ooff, of, sən neynədin, Fərid?” Fərid uşaq idi, çox da neynədiyinin fərqində deyildi, küt-küt aparıcıya baxdı. Aparıcı xanım davam etdi: “Hamımızı ağlatdın, Fərid, ekran başındakıları da, studiyadakıları da”. Bu yerdə Fərid bir az tutuldu. Xanım ondan bu mahnını oxuyarkən öz anasını düşünüb-düşünmədiyini soruşdu, uşaq cavab verməmiş eyham etdi ki, bu, anası olmayan, atılmış uşaqdır, ona görə bu mahnını ürəkdən, içdən oxudu. Amma Fəridin cavabından məlum oldu ki, anası onu uşaq evinə müvəqqəti verib, tez-tez də gəlib baş çəkir.

Mənzərə açıq şəkildə ortadaydı. Layihənin rəhbərləri eynilə körpə uşaqları metroda diləndirib mərhəmətli insanlardan pul yığan dələduzlar kimi hərəkət edərək, kimsəsiz uşaqlara kədərli mahnılar oxutdurur, onların diliylə xalqdan SMS (50 qəpik, 5 manat, 10 manat) istəyir və yığırdılar.

Bax, o vaxt bu dələduzluğa lazımi qiymət verilməliydi. Burada uşaq əməyinin istismarı da vardı, xalqı kədərə boğub acındırmaq, duyğularıyla oynayıb cibini soymaq alçaqlığı da. Fəqət MTRŞ bunu görməzliyə vurdu və layihə davam etdi - telekanal və layihə rəhbərləri bu veriliş iyrənc şəkil alana qədər kimsəsiz uşaqları itismar etdilər, mərhəmətli insanları soydular.

2010-cu ilin bu vaxtları, parlament seçkiləri kampaniyasında “Lider” televiziyasının efirində xüsusi şərhlə yayılan sənədli pornosüjetlər yaddan çıxıbmı? Xeyr. Hər kəs xatırlayır. Çünki minlərlə insan həmin biabırçı, dünyanın heç bir televiziyasında açıqlığı ilə göstərilməyən kadrların nümayişindən sonra “Lider” telekanalına baxmır. Adamlar tanıyıram ki, bu kanalın peyk frekansını televizorun yaddaşından silib ki, birdən barmağı pulta toxunar, “Lider” açılar, qanqaraçılıq olar.

Seriallarda vulqar danışıqlara irad tutmaq da vacibdir, amma arada xalqın tərbiyəsini pozanlara da göz ağartmaq lazımdır. Yoxsa bir yetim ANS tapmısınız, sağdan da döşəyirsiniz, soldan da...

# Metropoliten qəzet satışını niyə bərpa etmir?

## Ələsgər Süleymanov: “Metroda ticarətin, qəzet yayımının yığışdırılması mətbuata böyük zərbə oldu”

**Bakıda metro stansiyalarının keçidlərində müəyyən yerlərdə ticarət köşkləri qurulsa da, qəzet satışının bərpasına icazə verilmir.**
**Qeyd edək ki, 2013-cü ilin noyabr ayından etibarən metro stansiyalarında keçidlərdə qəzet və kitab satışı qadağan edilib. Həmin zaman redaktorlar, kitab nəşri ilə məşğul olan şəxslər və bu çap məhsullarının alıcıları qadağaya etiraz etsə də, nəticəsi olmadı.**

15 noyabr 2013-cü ildən isə metroda qəzet-jurnal satışını həyata keçirən “Metroservis” firması ümumiyyətlə ləğv edildi.

“Metroservis” hazırda yalnız abunə kampaniyası ilə məşğuldur. Firma xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sifarişlər qəbul edir. Lakin qurumdan bildirdilər ki, abunə vasitəsilə qəzetin satışı açıq satışla müqayisədə xeyli aşağıdır. Qurumdan eyni zamanda o da bildirildi ki, qəzetlər ən çox metro stansiyalarının keçidlərində satılırdı. Buna da icazə verilmir.

Bakı sakinlərinin daha çox istifadə etdiyi nəqliyyat vasitəsi olan metronun stansiyalarında qəzet satışının dayandırılması isə cəmiyyətin informasiya almasını çətinləşdirməklə bərabər, qəzet redaksiyalarına da maddi baxımdan xeyli zərər vurmuş oldu.

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin yeni sədri (Zaur Hüseynov) bu vəzifəyə təyin olunduqdan sonra stansiyalara, qatarlara vurulan reklam bannerləri tamamilə yığışdırıldı. Lakin bu ilin avqust ayından etibarən metro stansiyalarında reklamlar yenidən bərpa olundu. Hətta keçidlərdə xüsusi dükanlar da yaradıldı ki, orada indi güldən tutmuş, oyuncaqlara qədər hər şey satılır. Orada kitabların da satışına icazə verildi. Lakin qəzetlər yenə də unuduldu...

**Məsələ ilə bağlı “Bakı Metropoliteni” QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayevlə əlaqə saxladıq. Nəsimi Paşayev mövzu ilə bağlı musavat.com-a açıqlamasında bildirdi ki, metroda qəzet satışı ilə bağlı hələ ki hər hansı bir yenilik yoxdur:** “Metroda hazırda gül və kitab satışına icazə var. Hələ ki qəzet satışına icazə yoxdur. Metronun ”Nəriman Nərimanov", “Gənclik” və “İnşaatçılar” stansiyalarında təmir aparıldıqdan sonra orada satış üçün xüsusi yer də quraşdırıldı. Bu yerlərdə isə yuxarıda qeyd etdiyim kimi, gül və kitab satılır. Konkret, metroda hazırda gül, kitab, təcili yardım üçün lazım ola biləcək dərman preparatları satıla bilər. Bir də çoxfunksiyalı aparatlar vardır ki, onlarda su və digər bu kimi mayelər satıla bilər. Bundan başqa, metro keçidlərində hər hansı bir məhsulun satışına icazə yoxdur".

Nəsimi Paşayev onu da təsdiqlədi ki, artıq metroda reklam lövhələrinin vurulmasına icazə verilib. Çox maraqlı haldır ki, metroda kitab satışına icazə verildiyi halda, qəzetlərin yayımına qadağa qoyulub. Nə üçün? Suala heç “Bakı Metropoliteni”nin rəsmi nümayəndəsi də cavab verə bilmədi...

Bakıda qəzet satışı ilə məşğul olan yayım firmalarından biri də “Qasid” idi. Hansı ki, bu firmanın da köşkləri hələ 2012-ci ildə yığışdırıldı. Əvəzində isə daha modern köşklər gətirilsə də bu, qəzet satışının artımına səbəb olmadı. Əksinə, yeni köşklərdə qəzetlərin satışı nəzərəçarpacaq dərəcədə azaldı. Bunu köşklərdə satıcı kimi çalışanlar da təsdiq edirlər. Hazırda qəzetlər yeni köşklərin, sadəcə, qapılarında olan xüsusi yerlərə qoyularaq satılır. Mahiyyət etibarı ilə bura köşkdən çox mini marketə bənzəyir.

**Məsələ ilə bağlı “Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanovun da fikrini aldıq. Ə.Süleymanov qəzet yayımı ilə bağlı məsələnin çox acınacaqlı olduğunu dedi:** “Şəhərdə yeni qoyulan köşklərə qəzet veririk. Amma bu çox azdır. Həm də onların bölüb satmaq ənənəsi yoxdur deyə, hesab edirəm ki, hazırkı zamanda o, ”Qasid"in gördüyü işi yerinə yetirə bilmir. Bu köşkləri “Qasid”in köşklərinin yerinə qoysalar da, “Qasid”i əvəz edə bilmir. Çünki “Qasid”in neçə illərdən bəri qəzet satmaq ənənəsi vardı və orada əsas üstünlüyü qəzetlərin satışı təşkil edirdi. Amma bu köşklərdə qəzetlər sanki ən axırıncı satış məhsulu kimi düzülür və onların satışı köşklərin elə də marağında deyil. Metro stansiyarlarına gəlincə isə ora bizim üçün ən strateji yerlərdən idi. Çünki hava şəraitindən asılı olmayaraq metroda hərəkət edən oxucular istədikləri vaxt giriş-çıxışda qəzet alıb ya evə aparırdılar, ya da metroda oxuyurdular. Metrodan ticarətin, qəzet yayımın yığışdırılması mətbuata böyük zərbə oldu. İndi söhbət gedir ki, metronun yeni satış mərkəzləri açılıb. Əgər metroda ticarət obyektləri açılırsa, birinci növbədə qəzetlərə şamil edilməlidir".



❑ **Əli RƏİS**

# “Qarasu OYL”-da “qara günlər” bitmək bilmir

## Fəhlələrdən şirkət rəhbərliyinə şok ittihamlar

**“Qarasu OYL” neft şirkətinin fəhlələri növbəti dəfə etiraz aksiyası keçiriblər. Redaksiyamıza daxil olan məlumata görə, fəhlələrin etiraz aksiyası keçirməsinə səbəb şirkətin vitse-prezidenti İslam Ovçiyevin neftçilərin yemək pullarını və bayram pullarını kəsməsi olub.**




İ.Ovçiyev bu qərarı neftin dünyada qiymətinin düşməsi ilə əlaqələndirməyə çalışıb.

Lakin məlum olub ki, İ.Ovçiyev də daxil olmaqla, şirkətin rəhbərliyində olanlardan kimsənin əmək haqqında dəyişiklik olmayıb.

Fəhlələrin “neftin qiyməti qalxanda bizim əmək haqqlarını qaldırmışdınız ki, enəndə "lqot"larımızı kəsirsiz" sualına İ.Ovçiyev cavab verə bilməyib.

Fəhlələrin sözlərinə görə, İslam Ovçiyev özü 18 min manat, fəhlələr 400-500 manat əmək haqqı alırlar. “Ağır şəraitdə işləyən biz, komfortlu kabinetdə oturan İslam Ovçiyev kimilər şah kimi yaşayırlar. "Qarasu OYL"da ədalətsizliyin başında vitse-prezident İslam Ovçuyev dayanır".

Fəhlələr deyir ki, İ.Ovçiyev onları işdən çıxarıb həbs etdirəcəyi ilə hədələyir. Neftçilər deyirlər ki, İslam Ovçiyev “Qarasu OYL”dan uzaqlaşdırılmayana qədər şirkətdə normal, ədalətli mühüt formalaşmayacaq. Fəhlələr tələbləri yerinə yetirilməyəcəyi təqdirdə etiraz aksiyasını davam edəcəklərini də açıqlayıblar.

❑ **E.HÜSEYNOV**

*P.S. Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağda Qərbi qorxudan "dəhşət ssenarisi"

**Münaqişə zonasına sülhməramlıların gətirilməsi məsələsi aktuallaşır, ancaq bunu kim və necə edəcək? Tomas de Vaal: "Qarabağ konflikti Ukraynadan başlayıb Suriyada qurtaran qarmaqarışıqlıq zəncirində növbəti həlqəyə çevrilə bilər..."**



**Dağlıq Qarabağ münaqişəsi dünyada bəlkə də yeganə etnik-ərazi konfliktlərindəndir ki, 23 ildir burada atəşkəs rejimi hər hansı üçüncü ölkənin sülhməramlı qüvvələri olmadan təmin edilir. Ancaq son aylar, xüsusən də sülh danışıqlarının dalana girdiyi və prezidentlər arasında birbaşa təmasın olmadığı axırıncı bir ildə vəziyyət kifayət qədər gərginləşib, atəşkəsin pozulması və yeni hərbi əməliyyatların başlama ehtimalı artıb.**

Doğrudur, bəzi analitiklərə görə, qlobal güclərin diqqəti - onlar həm də Qarabağ məsələsində vasitəçi kimi çıxış edir - Yaxın Şərqə, Suriya və İŞİD-ə qarışdığı üçün onlar yaxın coğrafiyada - Cənubi Qafqazda daha bir qaynar müharibə ocağının yaranmasına imkan verməz. Ancaq müharibə qızışanda qəfil qızışır və heç kimdən soruşmur. Onu dayandırmaq isə başlamaqdan qat-qat çətindir.

Yəni istənilən halda həmin qlobal güclər Dağlıq Qarabağ probleminə də yetərli diqqət ayırıb postsovet məkanının ən köhnə ixtilafının yeni müharibə fazasına keçməməsi, atəşkəs rejiminin saxlanması üçün təxirə salmadan nələrsə etməlidir. Ayrı sözlə desək, status-kvo indiki kimi qalacaqsa, savaş riskləri də böyüməkdə davam edəcək, çünki Azərbaycan öz ərazilərinin sonsuzadək işğal altında qalması ilə barışmayacaq.

Böyük ehtimalla, üç vasitəçi ölkədən biri kimi Rusiya məhz bu vəziyyətdən, ilk növbədə də işğalçı Ermənistanın yeni müharibədən çəkinməsindən istifadə edərək, bölgəyə öz hərbi qüvvələrini sülhməramlı qüvvələr adı ilə yeritmək yönündə fəallaşıb. Şimal qonşumuzun dominant olduğu hərbi-siyasi birlik - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə ATƏT arasında ilkin Qarabağ anlaşması da təzə fürsətdən Moskvanın yararlanmaq əzmindən xəbər verir.

*****

Qarabağda yeni müharibənin mümkünlüyü barədə Qərb analitikləri də tez-tez danışmağa və xəbərdarlıqlar etməyə başlayıblar. "Keçmiş Sovet İttifaqı mikanda ən köhnə və ən qorxulu konflikt olan Dağlıq Qarabağ münaqişəsi yenidən oyanmağa başlayıb". Musavat.com-un məlumatına görə, bunu Vaşinqtondakı Kornegi Fondunun siyasi analitiki, "Qara və Bağ" kitabının müəllifi **Tomas de Vaal** özünün "Politico" nəşrindəki məqaləsində yazıb.

**Siyasi icmalçının qənaətincə, 1994-cü ildən əldə edilmiş atəşkəs rejimi hazırda güclü təzyiq və təhlükə altındadır:** "Azərbaycan-Ermənistan sərhədi və Dağlıq Qarabağdakı təmas xətti üzərinə raketlər yağış kimi yağır. Təkcə son bir həftə ərzində 10-a yaxın insan həlak olub. Hələlik genişmiqyaslı hərbi əməliyyatların bərpa ediləcəyindən danışmaq tez olsa da, Bakı və İrəvandakı liderlər davakar mövqe tutmaqdadırlar ki, bu mövqedən çıxmaq da asan olmayacaq. Məsələn, rəsmi Bakı erməniləri faşist və terrorçu adlandırır. Prezident Serj Sərkisyan da siyasi təbliğatı gücləndirib. Sentyabrın 26-da o bəyan elədi ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir".



Tomas de Vaal

**"İş heç də "Rusiyanın barmağı"nda deyil" - davam edir analitik:** "Hərçənd Kremlin davranışı öz rolunu oynayır. Cənubi Qafqazla bağlı təhlükə ondadır ki, heç kim tam cavabdehlik daşımır və Qarabağ Ukraynadan başlayıb Suriyada qurtaran qarmaqarışıqlıq zəncirində daha bir həlqəyə çevrilir - hansı zəncirdə ki, Rusiya iştirakçı olsa da buna görə məsuliyyət daşımır. Rusiya hər iki tərəfə silah satır və onların qarşıdurmasından fayda götürməyə çalışır. Bununla da o, 1994-cü ildə əldə edilmiş atəşkəs sazişini sabotaj edir".

"Bu gün Qafqaz əvvəlki illərlə müqayisədə daha qeyri-sabit və proqnoz edilməyən bölgədir. Təmas xəttindəki son erməni-azərbaycanlı döyüşləri təsadüfi yanlışlıqdan doğan və növbəti çox da böyük olmayan müharibəyə səbəb ola biləcək ciddi presedent ehtimalını artırır. Hansı ki, müharibəni heç kim istəmir, ancaq heç kim də ondan çıxmağa hazır deyil. Rusiyanın davranışı üzündən belə bir şeyi önləmək çətindir və bu gün heç kimin belə bir dəhşət ssenarisini önləmək imkanı yoxdur" - qeyd edib ekspert.

*****

Deməli, bir an öncə konfliktin növbəti qaynar və daha dəhşətli fazaya keçməməsi üçün onun həllinə məsul olan aparıcı dövlətlər, beynəlxalq təşkilatlar önləyici addımlar atmaq zorundadır. Bu yöndə Avropa Birliyi də sözsüz ki, özünəməxsus rol oynaya bilər.

Amma hələ ki problemin yoluna qoyulmasında ən yaxşı imkanlar Rusiyanın əlində qalmaqdadır. Bunun məsələnin xeyrinə, yoxsa ziyanına işlədiyinə ötən 22 illik danışıqlar prosesi yaxşı şəhadət verir. Əfsuslar olsun ki, rəsmi Moskva bu unikal şansdan yararlanmağa tələsmir və vaxtaşırı növbətçi bəyanatlar verməklə kifayətlənir.

**Bu qənaətə Rusiya XİN-in xüsusi nümayəndəsi Mariya Zaxarovanın son açıqlaması şübhə yeri qoymur. XİN sözçüsü öncə bildirib ki, konflikt zonasında situasiyanın kəskinləşməsi siyasi dialoqun bərpasına mane olur:** "Biz ondan çıxış edirik ki, vəziyyətin daha da pisləşməsi, sadəcə, yolverilməzdir. Ona görə də tərəfləri güc tətbiqindən çəkinməyə, kompromis əldə olunmas üçün siyasi iradə nümayiş etdirməyə çağırırıq".

**Onun sözlərinə görə, Qarabağ nizamlanması Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu ilin aprel-may aylarında Moskvaya səfərləri zamanı ətraflı müzakirə edilib.** "Məsələ həmçinin nazir Sergey Lavrovun öz xarici həmkarları ilə cari təmaslarının predmetidir. Biz bu istiqamətdə ABŞ və Fransa ilə qarşılıqlı sıx əlaqədə işləyirik" - əlavə edib XİN yetkilsi.

Lakin acı gerçək belədir ki, Rusiyanın dinc Qarabağ təşəbbüsləri, o cümlədən də sonuncular heç bir effekt verməyib, status-kvo dəyişməyib, müharibə riskləri isə artıb. Konkret olaraq aprel-may danışıqlarından sonra - yay aylarında təmas xəttində vəziyyət daha da pisləşib.

Müşahidə edilən həm də budur ki, Rusiya Azərbaycan-Ermənistan qarşıdurma xəttində yeni gərginlikərə və epizodik eskalasiyalara sanki Dağlıq Qarabağa öz silahlı qüvvələrini yeritmək üçün münbit zəminin yaranma şansı kimi baxır, nəinki münaqişənin həllini, nəhayət, "ölü nöqtə"dən çıxarmağın vaxtı çatması kimi dərk edir.

# Qarabağ həqiqətləri xarici ölkələrdə müzakirəyə çıxarılacaq



**Azərbaycan Respublikası Prezidenti yanında Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və "İrəli" İctimai Birliyi tərəfindən həyata keçiriləcək "Münaqişə tərəfi Azərbaycan: həqiqətlər və reallıqlar" layihəsi çərçivəsində keçiriləcək konfransda artıq Avropanın bir çox ölkələrindən olan media nümayəndələri və tanınmış bloggerlərin iştirakı təsdiqlənib.**

Layihə çərçivəsində Litva, Macarıstan, İtaliya, Türkiyə, Efiopiya, İngiltərə, Belçika, Almaniya və İsrailin tanınmış media nümayəndələri Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycan tərəfinin reallıqlarını öyrənmək məqsədilə Azərbaycanda səfərdə olacaqlar (salamnews).

"İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov bu səfərin Azərbaycanın beynəlxalq ictimaiyyət üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Düşünürəm ki, Azərbaycanın beynəlxalq ictimaiyyət üçün hesablanmış addımlarında mövcud həqiqətlərin qabardılması ən əsas istiqamətimizdir".

Səfər çərçivəsində Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ gerçəklikləri, Azərbaycanın beynəlxalq müstəvidə bu məsələyə yanaşması, qaçqın və məcburi köçkünlərin problemlərinin tapdanmış insan haqlarının beynəlxalq ictimaiyyətdə daha çox qabardılması əsas məqsədlərdəndir.

Səfər zamanı yerli mətbuat orqanlarının bu məsələyə yanaşması, dövlət rəsmilərinin mövqeyi, vətəndaş cəmiyyəti institutları ilə görüşlərin keçirilməsi və təcrübi həqiqətlərin öyrənilməsi üçün xüsusi turlar nəzərdə tutulub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi





# Müsavatın Seçki Qərargahı aktiv iş rejiminə keçib

## Qərargahda partiya təmsilçiləri seçki müzakirələri aparır və qanun pozuntularını sənədləşdirirlər...



**Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahı aktiv və gərgin iş rejiminə keçib. Qərargahdan bildirilir ki, səhər saatlarından başlayaraq gün ərzində onlarla müsavatçı, həmçinin sadə vətəndaşlar da gələrək ofisdə tapşırılan işlərlə məşğul olurlar. Qərargahda aktiv seçki müzakirələri aparılır, sənədlər qaydaya salınır, müxtəlif qurumlara şikayətlər hazırlanır. Əməkdaşımız partiyanın seçki qərargahında olub və görülən işlərlə maraqlanıb.**

Günorta saatlarında partiyada onlarla insan iş başındadır. Onların arasında partiya rəhbərliyində təmsil olunanlar da var.

Qərargahda partiya təmsilçiləri aktiv seçki müzakirələri aparır və qanun pozuntuları fiksə olunur. Başqan müavini Elman Fəttah elə başqanın otağında aparılan müzakirənin nəticəsinə dair qeydlər aparır. Müsavatın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı partiya üzvlərinə tapşırıqlarını verir, Divan üzvü Razim Əmiraslanlı da müzakirəyə qatılaraq fikrini deyir. Daha sonra Müsavat başqanı Arif Hacılı qərargahda olan müavinlərini və Divan üzvlərini yığaraq vəziyyəti müzakirə etməyə çağırır.

Başqanın otağında toplantı keçirilməzdən əvvəl partiyanın Divan üzvü **Razim Əmiraslanlı** qeyd etdi ki, Müsavatın namizədləri seçkilərlə bağlı ciddi şəkildə təbliğata başlayıblar: "24 nəfər üzvümüz qeydiyyatdan keçib. Namizədlərimiz təbliğat-təşviqat materiallarını hazırlayırlar. Bugünlərdə materialları məntəqələrə yapışdıracaqlar, bukletlər hazırlanıb paylanacaq. İş gedir. Namizədlərin görüşləri də başlayıb. Yerlərdə görüşlər davam edir. Görüşlərdə müşahidə edirik ki, Müsavatın namizədlərinə münasibət çox yaxşıdır". O, həmçinin vurğulayır ki, müşahidələr seçicilərin hədsiz inamsızlığını göstərir: "Seçicilər seçkinin şəffaf və obyektiv keçirilməsinə inanmırlar".

**Qərargahın hüquqşünası Nemət Kərimli isə bildirdi ki, vəkillər Mərkəzi Seçki Komissiyasının qanunsuz hərəkətləri ilə bağlı şikayətlər hazırlayırlar:** "Hazırda MSK-ya verilən şikayətlər üzərində işləyirik. MSK-nın qəbul etdiyi qərarlarla bağlı şikayətləri, sənədləri hazırlamaqla məşğuluq. Onların qanunsuz qərarları barədə 15-ə yaxın şikayət hazırlanıb. Bəziləri MSK-ya verilib, bəzi şikayətlər Apelyasiya Məhkəməsinə verilib. Ali Məhkəməyə hazırladığımız şikayətlər də var". Bildirilir ki, şikayətlərin əksəriyyəti namizədin DSK tərəfindən qeydə alınmaması ilə bağlıdır.

Qeyd edək ki, Müsavatın Seçki Qərargahı seçki dövründə baş verən qanun pozuntuları barədə operativ məlumatlar hazırlayaraq mediaya yayır. Qərargahın yaydığı sonuncu bəyanatda bildirilir ki, deputat seçkilərinin azad və ədalətli keçirilməsi üçün demokratik seçkiqabağı şərait mövcud deyil. Seçki qərargahından bildirilir ki, Müsavata imza verən seçicilərə total təzyiqlər edilib. Builki seçki kampaniyasında yeniliklərdən biri də namizədlərin imza vərəqələrinin oğurlanmasıdır.

Həmçinin qərargahdan bizə bildirildi ki, Müsavat MSK-ya növbəti müraciətini də hazırlayıb. Bu, namizədlərə pulsuz efir vaxtının verilməsi ilə bağlıdır. "Pulsuz efir vaxtı seçki üçün vacib məsələlərdən biridir. İctimai diskusiyalar olmadan seçki kampaniyası mümkün deyil. Bununla bağlı MSK sədri Məzahir Pənahova müraciət göndərdik. Müraciətdə israrla seçki kampaniyası dövründə ictimai müzakirələrin aparılması, İctimai Televiziyada pulsuz efir vaxtının ayrılması tələb olunur",- deyə Müsavat başqanı Arif Hacılı vurğulayır.

Qeyd edək ki, Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahı seçki kampaniyasının sonrakı mərhələlərində də müvafiq hesabatlar və rəylər hazırlayaraq ictimaiyyətə təqdim etmək niyyətindədir.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# AMİP sədrinin istefası qəbul edildi

**AMİP Siyasi Şurasının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Siyasi Şuranın gündəliyinə Yusif Bağırzadənin AMİP sədrliyindən istefası ərizəsinə baxılması və partiyanın parlament seçkilərində qeydə alınmış namizədlərinin seçki kampaniyasının gedişi ilə bağlı məsələ daxil edilib. Yusif Bağırzadənin istefa ərizəsi qısa müzakirə edildikdən sonra məsələ səs qoyulub və istefa qəbul edilib.**

Gündəliyə çıxarılmış ikinci mövzu isə namizədlərin təbliğat və təşviqatı, üzləşdikləri problemlərlə bağlı olub.

Siyasi Şuranın iclasında AMİP-in qurultayına hazırlıq, qurultayın vaxtı ilə bağlı da müzakirələr olub. Qurultaya hazırlıq işlərinin tam başa çatmaq üzrə olduğu bildirilib, lakin ali toplantının dəqiq günü hələ təyin edilməyib. Qurultay parlament seçkilərindən sonra keçiriləcək.

Qurultayda AMİP-ə yeni sədr seçiləcək. Hələlik heç kim bu posta namizədliyini irəli sürməyib. Qurultayın günü təyin edildikdən sonra sədrliyə iddialıların rəsmi olaraq irəli sürülməsinə başlanacaq. "Yeni Müsavat"a daxil olan məlumata görə, AMİP-in baş katibi Arzuxan Əlizadənin və Siyasi Şuranın üzvü Əli Orucovun sədrliyə namizədliyinin verilməsi gözlənilir.

Qeyd edək ki, Yusif Bağırzadənin istefasından sonra nizamnaməyə uyğun olaraq sədrin səlahiyyətlərini baş katib Arzuxan Əlizadə icra edir.

❑ **E.SEYİDAĞA**

# ABŞ səfiri Məzahir Pənahovla görüşdü

## Rusiya MSK-sının sədri şəxsən Bakıya gəlir



**Milli Məclisə seçkilərlə əlaqədar "exit-poll" keçirmək üçün 4 təşkilat müraciət edib. Bunu MSK sədri Məzahir Pənahov deyib. O bildirib ki, "exit-poll" keçirmək üçün müraciət edən təşkilatlardan biri Fransa təşkilatıdır. Yerli təşkilatlardan "Els" Müstəqil Araşdırmalar Mərkəzi də müraciət edib. Qeyd edək ki, "exit-poll" keçirmək üçün müraciətlərə oktyabrın 12-nə qədər müddət ayrılmışdı. MSK oktyabrın 22-dək müraciətlərə baxıb, qərar verəcək.**

Parlament seçkiləri ilə əlaqədar Milli Məclis Aparatının mətbəəsində isə seçki bülletenlərinin çapına başlanılıb. 125 dairə üzrə ümumilikdə 5 milyon 344 min 431 ədəd bülleten çap olunacaq.

Seçki bülletenlərinin çapına deputatlığa namizədlərin birmənalı müəyyənləşdiyi (şikayətlərə baxılma prosesinin başa çatdığı) dairələr üzrə başlanıb. Seçki Məcəlləsinə uyğun olaraq bülletenlərin çap prosesi seçki gününə 10 gün qalmış, yəni oktyabrın 22-də yekunlaşacaq.

### Çurovun rəyi parlamentin legitimliyi üçün yetərli olacaqmı?

Azərbaycanda keçiriləcək parlament seçkilərini Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası müşahidə edəcək. Qeyd edək ki, MDB müşahidəçiləri bir qayda olaraq Azərbaycanda keçirilən bütün seçkilərdə gəlir və seçkilərin yüksək demokratik standartlara uyğun keçirildiyi barədə rəy verirlər. Dünən isə məlum olub ki, Rusiya Mərkəzi Seçki Komissiyasının sədri Vladimir Çurov şəxsən özü 1 noyabr seçkilərini müşahidə etmək üçün Azərbaycana gələcək.

MDB müşahidə missiyasının və Rusiya MSK-nın sədrinin seçkilərə əla qiymət verəcəyi şübhəsizdir. Bəs bu qiymət beynəlxalq birliyin rəyinə təsir göstərəcəkmi? Onların rəyi parlamentin legitimliyi üçün yetərli olacaqmı?

**Müsavat Partiyası Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı bildirdi ki, MDB müşahidə missiyasının seçkiyə hansı rəyi verməsi beynəlxalq birlik və seçkidə iştirak edən demokratik qüvvələr üçün ciddi əhəmiyyət daşımır:** "Məhz ATƏT-in verdiyi rəy seçkilərin legitimliyi, keçirilən seçkilərdə formalaşmış parlamentin legitimliyində öz sözünü deyir. ABŞ Dövlət Departamenti də adətən məhz ATƏT-in verdiyi rəyə uyğun mövqe sərgiləyir. MDB müşahidə missiyasının və ya Rusiya MSK-nın sədrinin verdiyi rəyə isə etimad yoxdur. Çünki MDB respublikalarında, eləcə də Rusiyada demokratik seçkilər keçirilmədiyi, bu ölkələrdəki rejimlərin bir-birinin keçirdiyi antidemokratik seçkilərə saxta legitimlik donu geyindirməyə cəhd etdiyi bütün dünyaya məlumdur. Azərbaycan hakimiyyəti aparılan yanlış siyasət nəticəsində indi çətin duruma düşüb. Məcbur qalıb Rusiya MSK-nın sədrini seçkini müşahidə etmək üçün xahişlə bura gətirirlər. Amma onun verəcəyi rəy heç nəyə təsir etməyəcək".

G.Aslanlı bəyan etdi ki, Azərbaycanda YAP hakimiyyətə gələndən indiyə qədər bütün seçkilər Moskvanın dəst-xətti ilə keçirilib. 1 noyabr parlament seçkilərinin də Kremlin patronajlığı ilə keçirildiyi ortadadır. Bunu Çurovun şəxsən gəlişi də təsdiqləyir.

Oktyabrın 15-də ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla görüşüb. MSK-dan "Yeni Müsavat"a verilən xəbərə görə, görüşdə səfirə seçki hazırlıqları barədə məlumat verilib. R.Sekuta Azərbaycanda demokratik irəliləyişə nail olmaq üçün azad və ədalətli seçkilərin keçirilməsinin əhəmiyyətinə toxunub.

Seçkilərdə namizədliyi qeydə alınan şəxslərin isə namizədlikdən imtinası prosesi dünən də davam edib. Artıq namizədlikdən imtina edənlərin sayı 300-ü keçib.

### "Azadlıq 2015" seçkidən çəkilə bilər

"Azadlıq-2015" siyasi partiyalar bloku isə seçkilərə bağlı yaranmış vəziyyəti müzakirə edib. Bu barədə "Yeni Müsavat"a qurumun mətbuat xidmətindən xəbər verilib.

Məlumatda bildirilir ki, blokun Mərkəzi Seçki Qərargahının "Azadıq-2015"in namizədlərinin qeydiyyatı və təbliğat-təşviqatı ilə əlaqədar situasiya haqqında məlumatı dinlənilib. Məlumatda bildirilib ki, blok tərəfindən irəli sürülən 73 namizəddən yalnız 58- i vərəqləri ala bilib. İmza vərəqləri götürməmək hallarının əksəriyyət yerlərdə hakimiyyət strukturları və seçki komissiyalarının namizədləri irəli sürülənləri imza vərəqləri alana qədər seçkidən uzaqlaşdırmaq üçün təzyiqləri və qanunsuzluqları ilə bağlı olub. İmzatoplama prosesinin gedişində yerli icra strukturlarının açıq və sərt təzyiqləri ilə üzləşən 58 namizəddən 43-ü imza vərəqlərini təhvil verə bilib və onlardan yalnız 20 nəfəri seçki komissiyalarında qeydiyyatdan keçib.

Qeydiyyata alınmayanlar arasında KXCP sədri Mirmahmud Mirəlioğlu, Azadlıq Partiyasının sədri Əhməd Oruc, ALDP sədri Fuad Əliyev, AXP sədrinin birinci müavini Qiyas Sadıqov və digər təcrübəli, tanınmış siyasətçilər var. Blok bəyan edib ki, hakim partiyanın real və ya formal namizədləri üçün yerli icra hakimiyyəti strukturları və bələdiyyələrin seçki komissiyaları xətti ilə təşkil edilən müdafiə kampaniyası eyni orqanlar tərəfindən müxalifət namizədlərinə açıq maneə hərəkətləri ilə müşahidə edilir. Toplantıda çıxış edənlər belə bir şəraitdə seçkilərdə iştirakın məqsədəuyğunluğu barədə diskussiya aparıblar. Bir sıra partiyalarda, o cümlədən blokun qeydə alınan namizədləri arasında çoxluq təşkil edən KXCP-də seçkilərdən çəkilmək meylinin gücləndiyi deyilərək, gələn həftənin əvvəlində bu barədə yekun siyasi qərarın veriləcəyi bəyan edilib. Həmin müddətə qədər blok namizədlərinin təbliğat- təşviqat kampaniyasının bütün mövcud imkanlardan istifadə edilərək aparılması məqsədəuyğun sayılıb.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

# Vurulan təyyarələr və onların ilginc hekayələri

## Onların bir çoxunun arxasındakı sirr pərdəsi niyə hələ də açılmamış qalır...

**Vurulan təyyarələr, onların vurulma anı ilə bağlı videolar, səbəbləri, tarixçələr hər zaman medianın müzakirə mövzularından olub. Son olaraq Malayziyaya məxsus mülki təyyarənin vurulması dünyada bu mövzu ilə bağlı müzakirələri intensivləşdirdi. Bəs ən çox hansı ölkələrin təyyarəsi vurulur, hansı səbəbdən vurulur, nəticəsi necə olur?**

"Yeni Müsavat" bu "vurulma" hekayələrindən bəzilərini oxucular üçün xatırladır.

Öncə daha çox səs-küy yaradan vurulma hekayələrini yada salaq.

2014-cü ilin 17 iyulunda saat 16.30-da Ukraynanın Donetskdən 80 kilometr aralı Snejniy yaşayış massivində "Malayziya hava yolları" şirkətinə məxsus Boeing-777 sərnişin təyyarəsi vurulub. İçində 280 sərnişin və 15 ekipaj üzvü olan təyyarə Amsterdam - Kuala-Lumpur reysini yerinə yetirirdi. Həmin vaxt Rusiyanın "İnterfaks" və RİTA-SİTA agentlikləri təyyarənin qəzaya uğradığı xəbərini versə də, "Euronews" və Ukrayna KİV-i təyyarənin Şərqi Ukrayna separatçıları tərəfindən məhv edildiyini bəyan etdi. Terrorçu İqor Qirkin "Elə indicə öz səmamızda təyyarəni vurduq", - deyə məlumat vermişdi.

Bu hadisə Ukraynada münaqşəni yeni, beynəlxalq səviyyəyə çıxarıb. Hadisə nəticəsində 300-dək adam həlak olub. Təyyarənin Rusiya separatçıları tərəfindən vurulması radioötürücü, peyk kəşfiyyatı və şahid ifadələri ilə qeydə alınıb.

İnteraz.tv-nin məlumatına görə, İsrailin "Fantom" qırıcı təyyarələri tərəfindən 1973-cü il fevraın 21-də naviqasiya səhvi ucbatından Sinayın hava məkanında İsrail aviabazalarından birinin yerləşdiyi rayonda Liviyaya məxsus "Arab Airlines" aviaşirkətinin "Boinq-727" təyyarəsi vurulub və 216 sərnişin həlak olub.

Bu hadisədən 7 il sonra Tirren dənizindəki Ustika ada rayonunda 1980-cı il iyulun 27-də "hava-hava" tipli raketlə göyərtəsində 81 nəfər olan İtaliyaya məxsus "İtavia" aviaşirkətinin DC-9 sərnişin təyyarəsi vurulub. Bütün sərnişinlər həlak olub. Ehtimallardan birinə əsasən layner Liviya və NATO təyyarələri arasında baş verən hava döyüşü ərazisinə daxil olub və səhvən vurulub.

Sovet qırıcı təyyarəsi 1983-cü il sentyabrın 1-də Oxot dənizi üzərində SSRİ hava məkanına daxil olan Cənubi Koreyaya məxsus "Boinq-747" laynerini vurub. Ümumilikdə göyərtədəki 269 nəfər ölüb.

ABŞ raket kreyseri "Vinsennes"(Vincennes) Fars körfəzi üzərində 1988-ci il iyulun 3-də raketlə "Iran Air" şirkətinə məxsus Airbus A300B2-203 sərnişin təyyarəsini vurub. 15 heyət üzvü də daxil olmaqla, 290 nəfər həlak olub. Sərnişinlər arasında 66 uşaq olub. ABŞ hökuməti İran təyyarəsinin səhvən İran HHQ-yə məxsus F-14 qırıcı təyyarəsi kimi qeydə alındığını bildirib. İran hökuməti kreyserin bilərəkdən sərnişin təyyarəsinə hücum etdiyini bildirib. ABŞ-ın o vaxtkı vitse-prezidenti (böyük) Corc Buş 1988-ci ildə bildirib: **"Məni heç vaxt heç bir fakt maraqlandırmır, mən ABŞ adından heç vaxt üzr istəməyəcəyəm"** *("I will never apologize for the United States of America, I don't care what the facts are").*




Erməni separatçıları 1994-cü il martın 7-də Xankəndi yaxınlığında İran HHQ-yə məxsus, göyərtəsində iranlı diplomatların ailəsi olan S-130 hərbi-nəqliyyat təyyarəsini Dağlıq Qarabağ üzərində vurublar. Təyyarənin göyərtəsində Novruz bayramını qeyd etmək üçün Tehrana yollanan İranın Moskvadakı səfirliyinin əməkdaşlarının ailələri olub. İranın Moskvadakı səfirliyi aviaqəza nəticəsində 9 uşaq da daxil olmaqla, 19 sərnişin və 13 nəfərdən ibarət heyət üzvü həlak olması barədə məlumat verib.

Ermənilərin təyyarənin vurulmasında iştiraklarını inkar etmələrinə baxmayaraq, Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi (MTN) İran tərəfinə təyyarənin ermənilərin ixtiyarında olan "Osa" zenit-raket kompleksi vasitəsilə vurulması barədə sübutlar təqdim edib. MTN bundan başqa Ermənistanın günahını təsdiq edən erməni danışıqlarının yazısını çatdırıb. Yazıda ermənilər, "bizim tərəfdən Azərbaycan təyyarəsi vurulub" - kimi şadyana xəbərlər bölüşüblər.

Təl-Əviv-Novosibirsk reysi ilə uçan "Sibir" aviaşirkətinə məxsus "Tu-154" avialayneri 2001-ci il oktyabrın 4-də Qara dəniz üzərində Ukrayna Hava Hücumundan Müdafiəsinin açdığı təlim atəşi zamanı S-200 raket kompleksi ilə vurulub. Laynerin göyərtəsindəki 66 sərnişin və 12 heyət üzvü həlak olub. Sərnişinlər Rusiya, İsrail və ya ikili vətəndaşlığa sahib olublar.

Ən son illərdəki hekayələrə bir daha qayıdaq. 14 iyul 2014-cü ildə Ukrayna rəsmiləri An-26 hərbi təyyarəsinin vurulmasını təsdiq ediblər. Ukrayna antiterror qərargahı Luqansk ərazisində vurulmuş təyyarənin zenit-raket kompleksinin köməyi ilə vurulduğunu qeyd edir. Hadisə zamanı təyyarəçi xilas olmağa imkan tapıb. Vurulmuş An-26 ekipajı əlaqəyə çıxaraq təyyarənin raket silahından vurulduğunu bildirib. Hadisə Rusiya sərhədində baş verdiyindən ehtimal olunur ki, təyyarəyə raket Rusiya Federasiyasının ərazisindən atılıb.

Ukraynanın ozamankı müdafiə naziri Valeri Qeletey hadisə barədə Ukrayna Prezidenti Petro Poroşenkoya məlumat verib. Bu haqda prezidentin mətbuat xidməti bildirib. **"Nəzərə alsaq ki, təyyarə 6500 metr hündürlükdə gedirdi, o zaman həmin məsafədə zenit kompleksi ilə onun vurulması qeyri-mümkündür, yəni təyyarə başqa silahla vurulub. Təyyarə Rusiya Federasiyasının ərazisindən atılan daha güclü raket silahı ilə vurulub"**, - deyə prezidentin mətbuat xidməti bildirib.

2015-ci ilin martında Yəmənin paytaxtı Sənada beynəlxalq koalisiyaya məxsus təyyarə vurulub. Hərbi təyyarə paytaxtın əl-Xətariş bölgəsində vurulub. Qeyd olunur ki, sağ qalan pilot həbs edilib. Həmin vaxt Səudiyyə Ərəbistanı və Fars körfəzinin bir neçə dövləti Yəməndəki şiə qiyamçılarına (husilər) qarşı hərbi əməliyyata başlamışdı. Koalisiya qüvvələrinin Sənaya endirdikləri hava zərbələri nəticəsində onlarla adam həlak olub.

Bu günə qədər bir neçə dəfə cəbhənin Ağdam istiqamətində silahlı qüvvələrimizin mövqeləri üzərində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçan aparat Hərbi Hava Qüvvələrimiz tərəfindən məhv edilib. Kənd sakinlərin pilotsuz təyyarənin necə vurulduğunu görüblər və bu barədə yerli mediaya açıqlamalarında bildiriblər.

2014-cü ilin 30 iyulunda Donetsk vilayətinin Xarçız şəhəri yaxınlığında Ukrayna təyyarəsi separatçılar tərəfindən vurulub. Bu barədə Xarçız sakinləri "Unian" agentliyinə məlumat veriblər. "Elə indicə Xarçız səmasında Ukrayna təyyarəsi vuruldu. Səmada 6-7 paraşütçü var" deyə sakinlərdən biri agentliyə bildirib.

2015-ci ilin mayında isə Səudiyyə Ərəbistanı HHQ-nin F-16 qırıcısı Yəmənin paytaxtı Səna yaxınlığında vurulub. Qırıcının pilotu tapılmayıb. Husilər təyyarənin düşdüyü yerdə 2 partlamamış bomba tapıb. Yayılan şəkillərin birində təyyarənin yanan hissələri, digərində isə qırıcının "Səudiyyə Ərəbistanı krallığının Hərbi Hava Qüvvələri" yazılan hissəsi göstərilir.

❑ **Sevinc TELMANQIZI**

# Niyə susaq?



**Hüseynbala SƏLİMOV**

**Bu günlərdə Əhməd Cavad haqqında maraqlı veriliş verdilər. Özümdən qətiyyən asılı olmayaraq bir də hiss etdim ki, boğazım quruyub, çox çətinliklə nəfəs alıram...**

Özümü ona görə pis hiss etdim ki, az qala dilimin ucunda bir hayqırtı donub qalmışdı. Onu nə deyə bilirdim, nə də geriyə qaytara, uda bilirdim...

Qeyri-ixtiyari olaraq bağırmaq istəyirdim ki, axı bütün bunlar nə vaxt qurtaracaq? Nə vaxta qədər bu millətin azadlıq deyilən dilləri kəsiləcək, nə vaxta qədər bu millətin haqq və ədalət hayqıran ağzı yumulacaq? Axı nə vaxta qədər?..

Desəm ki, Əhməd Cavaddan, 30-cu illərdən sonra bu ölkədə çox şey dəyişib, bu, bəlkə də ağır qəbahət, böyük yanlışlıq olardı - bu millətin dəyərli oğulları və qızları hələ də yollarını məhbəslərdən salmaq məcburiyyətindədir...

Əhməd Cavaddan sonra bir dəyişiklik var, o da budur ki, indi daha sürgün yoxdur və əgər bu da olsaydı böyük dəqiqliklə demək olardı ki, bəli, bayırda hələ də 37-ci ildir...

Yox, mən mübaliğəni, vay-şivəni sevən adam deyiləm. Azacıq müsbət bir şey olanda çalışıram ki, onu hamıdan əvvəl dilə gətirim. Amma dilə gətiriləsi bir şey yoxdur - ölkə Özbəkistan və Türkmənistan olmağa doğru gedir. Biz də bu gedişin, bu çevrilmənin qarşısında acizik...

Dostlar deyir ki, biz hər şeyi müstəqilliyə görə qurban verdik. Amma baxıb görürsən ki, müstəqilliyin də bu ölkədə təminatı yoxdur, bu hakimiyyət hər an, hər saat öz tamahı (bəli, mən maraq yox, məhz tamah deyirəm!) naminə ölkəni yenidən kiminsə boyunduruğuna keçirə bilər...

İndi bunun qarşısında heç bir manea yoxdur. Ona görə ki, milli müstəqilliyin təminatı ola biləcək azərbaycanlı insanı yoxdur. Onu gözü qıpıq ediblər, onu mənən sındırıblar, bir parça çörəyə möhtac ediblər...

Bir vaxt marksistlər deyəndə ki, proletariatın itirməyə heç nəyi yoxdur, mən bu sözlərdən qorxurdum. Ona görə ki, itirməyə bir şeyi olmayan adam sözün əsl mənasında "qorxulu"dur...

Marksistlər deyirdi ki, guya beləl変rinin qisası hər şeyi dağıtmaq, guya ki, böyük inqilablar olur! Amma hələ o vaxtlar mənə elə gəlirdi ki, belələrinin ən böyük qisası etinasızlıq, biganəlik olur. Əslində elə o vaxtlar da proletar inqilabı proletariatın və kəndlilərin adından bolşeviklər tərəfindən edilmişdi, onlar isə bütün bu prosesi cinayətkarcasına seyr etmişdilər...

Bu mənada azərbaycanlı insanı da "qorxulu"dur. O, tamam biganə və etinasız bir mövqe tutub. Tamam seyrçidir. Düşünürsünüz ki, belə bir kütlə sabah durub müstəqilliyin davasını edəcək?.. Mən də buna inanmaq istərdim, amma inana bilmirəm...

Düzdür, etiraz edən, haqq və hüquq, haqq və ədalət uğrunda səsini qaldıran və etiraz edən insanlar da var... Amma onların aqibəti necə olur? Onları bu ölkədə nə gözləyir? Bax, məsələ də bundadır. Məsələ də bundadır ki, beləlrəri Əhməd Cavadın taleyini təkrar etmək zorundadırlar...

Az qala elə hər gün rastlaşırsan ki, bəs filnakəsi saxladılar, filankəsin qohumunu həbs etdilər... Bir daha soruşmaq istəyirsən ki, axı nə üçün? Bütün bunlar nə üçündür? Niyə bu ölkə bizə bu qədər dar gəlib?..

Bəli, susmaq olar. Susub baş girələmək olar bu ölkədə. Amma hamı bunu bacarırmı? Hamı belə bir həyatı qəbul edirmi? Çətin məsələdir... Bəlkə də bu da bir az mübahisəli görünəcək. Kimsə deyə bilər ki, bəs sovet vaxtı necə dözürdünüz?..

Düzdür, haqlı və çətin sualdır. Sovetlər vaxtı da etiraz edənlər vardı. Bu, necə deyərlər, məsələnin bir tərəfi. Digər tərəfinə gəldikdə isə, sovetlər vaxtı ideologiyanın qismən az nüfuz etdiyi sahələr də var. İdeologiyanın təqibindən qurtulmaq istəyən gənclər bu səmtə yönəlirdilər...

Təbii ki, indi də belə etmək olar. Məsələn, özünü sənətə və elmə həsr etmək olar. Amma biz hər şeydən öncə həm də vətəndaşıq... Hara getsən, totalitarizm və avtoritarizm öz caynaqları ilə səni təqib edəcək. Sovetlər vaxtı da belə idi, indi də belədir...

Həm də insan susmaq üçün yox, danışmaq, qurmaq və yaratmaq üçün yaranıb.

Bəlkə də bizim nəsil bunu belə ağrılı qəbul edir... Ona görə ki, bizim nəslin hər bir üzvündə qısaca da olsa sürən azadlıq dövrlərinin kiçik zərrəciyi qalıb...

Məhz bu zərrəcikdir bizi mübarizəyə səsləyən. Məhz bu zərrəcikdir bizi rahat oturmağa, zülmə qatlaşmağa qoymayan...

Amma nə yaxşı ki, o varmış! Nə yaxşı ki, o, bizə dinclik vermir! O olmasaydı həyatımız nə qədər mənasız və sönük olardı!..

YENİ MÜSAVAT
N 229(6257) 16 oktyabr 2015




Cümə söhbətləri

# Ən güclü şəxs - istəklərini əqlinə tabe edəndir



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd edirik ki, bizlərə bu ləyaqəti, dərki, şüuru nəsib etdi ki, həyatımızı bihudə yerə yaşamaq istəməyək. Allah Təala tofiqat verdi ki, həyatın mənasını anlamağa çalışanlardan olaq. Nə üçün bu dünyaya gəlməyimizin, nə kimi missiya daşıyıcısı olmağımızın üzərində düşünək. Haradan gəldiyimizi, harada olduğumuzu, haraya gedəcəyimizi, nə etməli olmağımızı - ömrümüzün ən mühüm şüarlarından qərar verək. Allahdan bu dünya və axirətdə əziz Peyğəmbərimizlə (s) və onun pak Əhli-Beyti (ə) ilə məhşur olmağı diləyirik.**

## Mübarək Ramazan ayı ilə Məhərrəm-Səfər əyyamının oxşarlığı

Əslində daxil olduğumuz əyyam müəyyən cəhətlər baxımından mübarək Ramazan ayı ilə müqayisə oluna bilir. Mübarək Ramazan ayında insanlar bir ay boyunca özlərini səfərbər edir, oruclarını tutur, zahiri çəkinmələri bacarmalarını göstərməklə yavaş-yavaş daxili, batini, ruhi, fikri mövzularda da çəkinmələrini artırmağa çalışırlar. Bu ayda insanlar Allahın əmri olduğu üçün günün bəlli hissəsini yemirlər, içmirlər, müəyyən şeylərdən imtina edirlər. Əslində bu, bir məktəb, ibrətlər, dərslər toplusudur ki, bunu bacarmaq mümkündürsə, həqiqi oruc tutan öz ruhiyyəsində, düşüncəsində, qəlbində də dəyişikliyə nail ola bilər. Onun qəlbi, ruhu, təfəkkürü oruc tuta bilər. O, mənfi zənlərdən, nəfsani istəklərin məftunu olmaqdan, onların əsarətində olmaqdan azad ola bilər. Ramazan ayında zahiri oruc tutmaqla bizlər daxilimizdə də oruc tutmağı öyrənirik. Bu baxımdan mübarək Ramazan ayı Məhərrəm-Səfər əyyamına çox oxşayır. Məhərrəm-Səfər əyyamında əzadar zahirdə Əhli-beytlə (ə), Allahın yaratdığı varlıq aləminin ən üstünləri ilə, Peyğəmbər (s) və onun pak Əhli-beyti (ə) ilə həmdərd olmasını, onlarla nəfəs almasını, onlarla birgə olmasını zahirdə yaşamış olur. Əzadar, iki ay ərzində öz əhval-ruhiyyəsini zahirdə Məsumlarla (ə) uyğunlaşdırır. Başqa tarixlərdə də sevinclərini Məsumlarla (ə) uyğunlaşdırır.

Məhərrəm-Səfər əyyamında, Ramazan ayında olduğu kimi, zahiri məsələləri yaşatmağın xüsusi əcri və savabı var. Zahiri məsələlər bu əyyamda o qədər önəmlidir ki, əgər misal üçün, bu gün Əhli-beytin (ə) müsibətini dərk edərək kədərli olmağa tutumun, hazırlığın, yetkinliyin hələlik yoxdursa, özünü kədərli kimi göstərmək də belə, tövsiyə edilir. Hətta bunun da əcri və savabı var. Əhli-beytin (ə) yaşadıqlarını duymaq və daxildən cuşa gələn hisslərin nəticəsi olaraq kədərlənmək durumun yoxdursa, zahiri kədərlənməyə də icazə verilir. Başqa yerdə əksinə, zahiri görsəntilərin batini durumun nəticəsi olması tövsiyə edilir. Amma bu iki aylıq əyyam istisnadır. Çünki bu ayda olunan bütün ibadətlər, bütün əzadarlıqlar Allaha, Onun yaratdığı ən gözəl insanları sevdiyinə görədir. Zahirdə əzadar olursan, zahirdə Əhli-beyt (ə) ilə sinxron vəziyyətə gəlirsən, onlarla uyğunlaşırsan, birgələşirsən - bununla da yavaş-yavaş daxildə də dərkin artır və həqiqi əzadara çevrilməyə başlayırsan. Bu mənada, bu iki ay ərzində xoş olsun o kəslərin halına ki, əzadar olurlar, iradəvi kədəri yaşatdılar.

## Qazandıqlarımızı ilboyu necə qoruyub saxlayaq?

İnsan Məhərrəm-Səfər əyyamında Əhli-beytlə (ə) tanış olmağa başlayır. Duyğularını onlara tərəf, onların kədəri ilə, onların yaşadıqlarına tərəf uyğunlaşdırmağa başlayır. Hərə öz tutumuna, vəziyyətinə, halına görə bu əyyamdan bəhrələnir. Amma, o qədər bərəkətli məktəbdir Aşura məktəbi ki, hərə buradan bir feyz, bir pay apara bilir. Necə ki, Ramazan ayında İlahi bir süfrə açılıb və hər kəs bu ziyafətə daxil olsa, bir pay aparır, eləcə də əyyamı yaşadan əzadar bu əyyamdan çıxanda mütləq onun halında bir dəyişiklik olur. Bu əyyamda axıdılan göz yaşlarının, yaşanan kədərin insanın ilboyu həyatına təsiri olur. Çalışmalıyıq ki, bu təsir davamlı olsun və bu təsirin yaratdığı bərəkəti gərək əldən verməyək. O gözlər ki, bu əyyamda onlardan Hüseyn (ə) üçün göz yaşı axıb, onlar harama tərəf baxmasın. O dillər ki, bu əyyamda "Hüseyn, Hüseyn!" deyib, o dilləri yenidən pis sözlərə, yalana, qeybətə tərəfə qayıtmağa qoymayaq. O ruhiyyə ki, bu əyyamda Kərbəla məktəbindən dərs alaraq fədakarlıqla, şəfqətlə, mövqeliliklə uyğunlaşıb, onu ilboyu yaşatmağa çalışaq.

## Həyanı yaşatmaq

Kərbəla barədə danışarkən, bir mühüm nöqtəni qeyd etməliyik. Kərbəlada həya daşıyıcıları, həya təcəssümləri və bundan məhrum olanlar qarşı-qarşıya gəlmişdi. Bir tərəfdə Allah razılığını düşünənlər, digər tərəfdə isə bunu heç xatırlayamanlar vardı. Qeyd edək ki, İslamın gəlişinin əsas məqsədlərindən biri də həyanı yaşatmaqdır.

Günümüzdə həya - ən aktual mövzulardandır. Son 10 ildə yaşayışımızda da həya mövzusu sanki gündəmdən çıxmaqdadır. Bundan əvvəl kişilərin öz həyası, qadınların öz həyası, uşaqların da öz həyası olardı. Amma bu gün bir mərhələ gəlib ki, insanlıq adına olan durumun vəziyyəti ilə bağlı danışmaq lazımdır.

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Hər dinin öz təbiəti vardır, İslamın təbiəti də həyadır"**. Həya olmayan yerdə İslam yoxdur.

İmam Sadiq (ə) buyurur: **"Həyası olmayanın imanı yoxdur"**. Belə başa düşülür ki, imanın ən ciddi göstəricilərindən biri də həyadır.

Əmirəlmöminin Həzrət Əli (ə) həya barəsində buyurur: **"İnsanların ən ağıllısı - onların ən həyalısıdır"**. Həya varsa, ağıl var, həya yoxdursa, ağıldan danışmaq olmur. Deməli, ağılın ən ciddi varlığı həya ilədir. Həya - insanı çirkin işlərdən, günahlardan, yalandan və sairədən çəkindirən İlahi əmanət hissidir. Həya olmasa, özünü Allah hüzurunda hiss etməyən insan yalan danışacaq, heç kim onu görməyəndə və bilməyəndə rahatlıqla mənfi işlər görəcək. İnsan özündən və Allahdan həya edəndə, tamamilə başqa bir vəziyyət yaranır.

İnsan həyalı davranmasa, deməli, imanında, etiqadında bir müşkülü var. Ən ağıllı insan o insandır ki, başa düşür ki, onu bir yaradan var və o, elə-belə yaşamır. Həyanın zirvəsi - insanın özünün özündən həya eləməsidir. Belə olsa, şagird dərs oxuyar, müəllim dərs deyər. Belə olsa, kişi həya edər və ailəsinə əmanət kimi baxar, qadın da həya edər həyat yoldaşı ilə Allah bəyənən rəftarı sərgiləyər.

Bu gün dünyanın ən böyük müşkülü budur ki, həyanın aradan getməsini istəyirlər. Gina (haram musiqi) və rəqs - həyanı aradan aparan ən ciddi mövzulardan biridir. Onların və mənasız məclislərinin vasitəsilə həyanı aradan aparırlar. Lənətlik şeytanın hoqqalarından biri də budur ki, bəşər övladı haram səhnələrə və ona yaxın səhnələrə baxsın. Bununla da ailədə həya aradan gedir. Çox diqqətli olmaq lazımdır. İmam Sadiq (ə) buyurur: **"İman və həya ayrılmaz dostdurlar, biri gedərsə, o biri də gedər"**.

İmam Sadiqdən (ə) ağılın meyvəsi barədə mübarək bir buyuruş var. Həyanın da meyvəsi ismətdir. Həya olanda, həyata xeyir-bərəkət gələr. Allahdan istəyirik ki, hallarımıza nəzər salmağı bizə nəsib etsin. Həya etsək, Allah dərgahında əməllərimiz düzələr. Allahım, bizləri həyalılardan qərar ver!

## Fəsad və qarışıqlıqla zəngin dünyada özünə sahib çıxmaq

Əhli-beytin (ə) həyatı, davranışları, buyuruqları bütün bəşəriyyət, insanlıq üçün hər dövrdə örnək və yolgöstərəndir. Əhli-beytin (ə) buyuruşları bizi öz qiymətimizi bilməyə, dünya həyatımızdan axirətimizi qazanmaq üçün istifadə etməyə sövq edir. Əhli-beytin (ə) buyuruşları əslində həm də onların həyat tərzi, yaşadıqlarıdır ki, bizlərə, Əhli-beyt (ə) yolunu getmək istəyənlərə də onlarla uyğunlaşmaq üçün göstərişlər verir. Bu fəsad mühitində, bu qarmaqarışıq dünyada Əhli-beytin (ə) buyuruşları əslində bir yolgöstərən, yolumuzu aydınlatan çıraqdır. Allaha bəndəlik yolunun yolçusu da gərək iradəvi olaraq öz seçimlərini etsin, bu buyuruşlardan bəhrələnərək, düz yolu görsün və Allaha tərəf hərəkət etsin.

## Virtual dünyanın qəflət potensialı

Çox qarışıq və özünəməxsus olan bu dünyada iman əhli özünü toparlaya bilməli və qəflətdən ayılmalıdır. Qəflət çox ağır mövzudur. İnsan Məkkədə, həccdə, Kəbə ziyarətində belə olaraq, qəflətdə qala bilər. Namaz qılar, amma namaz qılmasının fərqində olmaz, qəflətdə olar. Bir də xəbər tutar ki, namazda Allahdan başqa hər şey barədə düşünüb. Çox çətin bir dünyada yaşayırıq. Hər tərəfdən əhatə olunmuşuq. Bütün müasir texnologiyalar öz faydaları ilə yanaşı, ən böyük zərərini də verib - bizi özümüzdən alıb. Əgər bunlar bizi özümüzdən alırsa, artıq bu barədə ciddi fikirləşməliyik, onlarla bağlantımızı zəiflətməliyik, lazım gəlsə, müvəqqəti olaraq istifadəni də azaltmalıyıq. Bütün vasitələr ki, bizi özümüzdən alır, Allaha bəndəçilik yolumuzdan sapdırır, onlara "dayan!" deməyi bacarmalıyıq. İradəviliyin təzahürü tək real dünyada nəfsani məsələlərdə özünü göstərməyəcək. İradə - insanın başını qatan, insanı məşğul edən, özündən, öz vəziyyətindən ayıran hər bir vasitəyə qarşı dayanmağı bacarmaqda özünü göstərəcək. Əgər insan bunu bacaracaqsa, aqibətinə də təsiri olacaq.

## Öz qiymətini bilən insanlar

İman əhli - bu fəsad mühitinin içərisində, bu qarışıq dünyada Rəbbələrinin buyuruşunu seçənlərdir. İman əhli Allaha itaətin lazımlılığını dərk edib, bu istiqamətdə hərəkət etməyə başlayıb. Əslində bu, çox çətindir. Nəfsani istəklər bir tərəfdən öz işini görür, mühit öz işində, şeytan (lən) müxtəlif oyunları ilə öz işində. Belə bir dönəmdə insan əgər toparlana bilirsə, namazında, ibadətində ola bilirsə, Allaha bəndəliyini edə bilirsə, Əhli-beytin (ə) sevincli və kədərli günlərində öz ruhiyyəsini onlarla uyğunlaşdıra bilirsə, yediyinə, içdiyinə diqqət edə bilirsə, hərəkətlərinə, davranışlarına diqqət edə bilirsə, xoş olsun o insanın halına. Həzrət Əmirəlmöminin (ə) bu cür insanları dəyərləndirərkən onları öz qiymətini bilən insanlar kimi tərənnüm edir. Həzrət Əli (ə) buyurur: **"Kim özünə qiymət qoysa, həvayi-nəfsinin istəkləri onun gözündə dəyərdən düşər"**. O insanlar ki, həvayi-nəfslərini nəzarətə almağı, tənzimləməyi bacarır, məsələlərə ağılla, düşüncə ilə yanaşır və aqibətini düşünərək hərəkət və davranışlarını tənzimləyirlər - bu insanlar öz qiymətlərini bilən insanlardır. Kim özünə qiymət qoysa, həyatını bu istiqamətdə qurar.

## Həvayi-nəfsə qalib gəlməyin yolu təfəkkürdən keçir

Bu cür yaşamağın yollarından biri - düşünmək, təfəkkür etməkdir. İman əhli özü haqqında düşündüyünə, təfəkkür etdiyinə görə bu uğura çatır. Bunu ediriksə, gərək səyləri artıraq, daha da çox edək. Xatırlamalıyıq ki, bu dünya - müvəqqətidir. Rəbbimiz Həzrət Musaya (ə) vəhy etdi: **"Yadında saxla ki, sən qəbir sakini olacaqsan. Bu xatırlama səni nəfsani istəklərin çoxundan saxlayacaqdır"**. Niyə iman əhli, Əhli-beyt (ə) aşiqləri halal-harama riayət etməyi, Allah bəndəsi kimi yaşamağı bacarırlar? Ona görə ki, onlar bu dünyanın müvəqqətiliyinin, ötəriliyinin, bu dünyanın bir keçid olmasının fərqindədirlər. Əgər adam bunun fərqində olsa, Allaha bəndə olaraq yaşaya bilər. Yaşadığımız mühitin içərisində bütün təhriklər, qıcıqlar bunun əksini etdiyi zaman, əgər insan Allah bəndəsi kimi yaşaya bilirsə, deməli fərqindədir ki, bir gün qəbir sakini olacaq.

## Öz daxilini fəth etmək

Həzrət Süleymandan (ə) həvayi-nəfsə qalib gəlməklə bağlı çox incə buyuruş var. Həzrət Süleyman (ə) buyurur: **"Öz nəfsi istəyinə qalib gəlmiş şəxs, təkbaşına bir şəhəri fəth etmişdən də güclüdür"**. Yəni bir insanın bütöv bir şəhəri fəth etməsi, olduqca böyük hünər tələb edir. Bunu elə bir insan deyir ki, bu qədər gücə və qüdrətə sahib insan olub. Həzrət (ə) bizi ciddi mövzuda xəbərdar edir. Bildirir ki, insanın öz daxilində fəth olunmalı, qalib gəlinməli, mübarizə aparılmalı böyük məsələlər var. Əgər onu bacarsa, nəfsani istəklərini üstələyə bilsə, özünün daxilini fəth etsə - bu insan bir şəhəri fəth etmişdən daha güclüdür.

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"İnsanların ən şücaətlisi - öz nəfsi istəyinə qalib gələn şəxsdir"**. Ən şücaətli şəxs o kəsdir ki, həvayi-nəfsinə qalib gəlməyə gücü çatır. Peyğəmbərimiz (s) yenə buyurur: **"Pəhləvan - camaata qalib gələn deyil, öz nəfsinə qalib gələn kimsədir"**. Daxilimizdə bir savaş var. Möminlər o kəslərdir ki, bu savaşdan qalib çıxır. Bu savaşın mənəvi pəhləvanlarıdır əslində möminlər.

**Allahım, bizi Məhərrəm-Səfər əyyamında qazananlardan qərar ver!**

**Allahım, bizlərə bu əyyamda qazandıqlarımızı ilboyu qoruyub saxlamağı nəsib et!**

**Allahım, bizləri həvayi-nəfsimizlə mübarizədə qalib et!**

**Allahım, bizi nəfsimizin qulu olmağa qoyma! Amin!**

YENİ MÜSAVAT
N 229 (6257) 16 oktyabr 2015

# "Bakcell" şirkətinin ultra-sürətli LTE şəbəkəsi 225 Mbit/s qədər sürəti dəstəkləyəcək!

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkətinin ultra-sürətli LTE şəbəkəsi 225 Mbit/s sürəti dəstəkləyəcək. Buna şəbəkəni LTE-nin təkmilləşdirilmiş variantı olan "LTE-Advanced" tezlik daşıyıcılarının birləşməsi (Carrier Aggregation) texnologiyası vasitəsilə təkmilləşdirməklə nail olunub. "Bakcell" tezlik daşıyıcılarının birləşməsi texnologiyasından istifadə edərək dünya üzrə Kateqoriya 6 "LTE-Advanced" xidmətlərini göstərən 73 şəbəkədən (ümumilikdə 422 şəbəkədən) biri olması ilə qürur duyur.**

"Bakcell" şirkətinin 2015-ci ilin may ayında istifadəyə verdiyi 1800 MHz tezlikdə işləyən və Kateqoriya 4 (150 Mbit/s-yə qədər) olaraq ən qabaqcıl texnologiyaları dəstəkləyən LTE şəbəkəsi bütün "Bakcell" abunəçilərini yüksək keyfiyyətli və sürətli mobil internet təcrübəsi ilə təmin edir.

İndi isə ən qabaqcıl tezlik daşıyıcılarının birləşməsi texnologiyasının köməyi ilə Bakcell abunəçiləri 225 Mbit/s-yə çatan yükləmə sürəti ilə 50% daha sürətli mobil internet təcrübəsindən faydalana biləcəklər.

**Tezlik daşıyıcılarının birləşməsi texnologiyası nə üçün vacibdir?**

Tezlik daşıyıcılarının birləşməsi texnologiyası çoxlu sayda radio kanalları (tezlik daşıyıcılarını) müxtəlif və ya eyni tezlik diapazonlarında sanki eyni olan bir kanal kimi istifadə etməyə imkan verir. Daha çox tezlik daşıyıcısı daha yüksək sürət və daha böyük tutum deməkdir. Bu, sıx hərəkətli avtomobil yolunun zolaqlarını genişləndirərək çoxzolaqlı avtobana çevrilməsinə oxşayır. Yolda zolaqların sayı nə qədər çox olarsa, onun üzərində yüksək sürətlə hərəkət edə bilən avtomobillərin sayı da bir o qədər çox ola bilər. Tezlik daşıyıcılarının birləşməsi texnologiyasının Kateqoriya 6 səviyyəsinin özü 40 MHz tezlik diapazonuna malik olmaqla müəyyən və ya çoxdiapazonlu tezliklərdə 300 Mbit/s-yə qədər sürətə nail olunmasına imkan verir.

**Düzgün cihazın sahibi olmaq ən yaxşı təcrübəyə malik olmaq deməkdir**

1800MHz tezlik diapazonunda (Band #3) işləyən Kateqoriya 6 LTE şəbəkəsini dəstəkləyən cihaz istifadəçiləri "Bakcell" şirkətinin ultra-sürətli "LTE-Advanced" mobil şəbəkəsində maksimal sürətli internet təcrübəsindən tam faydalanmaq imkanına malik olurlar.

2015-ci ilin oktyabr ayından başlayaraq, Apple, Samsung, HTC, LG, Huawei, Sony və digər məşhur istehsalçılar hazırda bazarda əldə oluna bilən 1800 MHz tezlik diapazonunda Kateqoriya 6 LTE şəbəkəsini dəstəkləyən 80-dən çox cihaz satışa buraxıblar. Belə cihazların sayı sürətlə artmaqdadır.

| | | | 6 dəqiqə ərzində daha çox əldə etmək imkanı! | | |
|---|---|---|---|---|---|
| Texnologiya | Nəzəri maksimal sürət | Gözlənilən orta sürət | Musiqi faylları (4MB) | Videokliplər (40MB) | Tətbiqetmələr/ Oyunlar (1GB) |
| LTE-A (20MHz) | 150 Mbit/s | 10-20 Mbit/s | 225 trek | 23 klip | 1 Tətbiqetmə |
| LTE-A (30 MHz) | 220 Mbit/s | 30-60 Mbit/s | **675 trek** | **68 klip** | **3 Tətbiqetmə** |

**Müştəri təcrübəsi dəyişəcək**

"Bakcell" şirkəti ən yaxşı müştəri təcrübəsinin təmin edilməsinə birinci dərəcəli prioritet məsələ kimi yanaşır. Bu gün "Bakcell" abunəçiləri LTE şəbəkəsində mobil internet xidmətindən orta hesabla saniyədə 20-30 Mbit sürətlə faydalanırlar ki, bu da əsasən cihazlara və tətbiqetmələrin istifadəsinə olan tələbatla bağlıdır.

"Biz Kateqoriya 6 LTE şəbəkəsini dəstəkləyən cihazlarda məhsuldarlığın iki dəfə artaraq orta hesabla 60 Mbit/s-yə çatacağını gözləyirik. Bu, "Bakcell" abunəçilərini maksimum keyfiyyət təcrübəsi ilə təmin edəcək. Yükləmə sürətinin iki dəfə artması nəticəsində məzmunun yüklənməsində gecikmələrin azalması, mobil cihazlarda real zaman rejimində oynanılan oyunların sürətlənməsi və cihazların hərəkətdə olarkən ümumi məhsuldarlığının artırılması vasitəsilə "Bakcell" LTE şəbəkəsində rəqəmsal təcrübə təkmilləşdiriləcək. Bu inanılmaz yükləmə sürəti ilə batareyanın həyat müddəti əvvəlkindən daha uzun sürəcək, çünki cihazın radiotransiver və mərkəzi prosessorunun yüklənməsinə olan ehtiyacla birlikdə yükləmə müddəti də azalacaq", - deyə "Bakcell" şirkətinin baş texniki direktoru cənab Yigit Berktaş bildirib.

"Bakcell" abunəçiləri adi xidmətlərdən istifadə etdikləri zaman da ultra-sürətli genişzolaqlı mobil şəbəkədən daha çox fayda əldə edə bilərlər:

**İstifadəçilər "LTE Advanced" texnologiyasından necə faydalana bilərlər?**

Ultra-sürətli mobil genişzolaqlı rabitəyə tələbat artmaqdadır. Kateqoriya 6 LTE şəbəkəsi istifadəçilərə yüksək keyfiyyətli 4K videolara baxmaq, canlı iştirakçısı olduqları idman hadisələrindən və konsertlərdən real vaxt rejimində HD keyfiyyətli videolara çəkdikləri qiymətli anları məşhur paylaşma portalları vasitəsilə bölüşmək, tibbi xidmətlər kimi böyük həcmdə məlumatları məsafədən analiz etmək qabiliyyətinə malik olan daha çox daşına bilən texnologiyalardan və getdikcə püxtələşdirilən gələcək nəsil mobil biznes tətbiqetmələrindən istifadə etmək, bütün tətbiqetmələrin və cihazların "Əşyaların İnterneti"nə qoşulduğu və bizi əsl "ağıllı" evlər erasına gətirəcək imkanları yaradan yeni bir dünyanın qapılarını üzünə açaraq onların gündəlik həyatını dəyişəcək.

225 Mbit/s sürətin dəstəklənməsi üçün LTE şəbəkəsi ilk öncə Bakı şəhərində, bundan sonra isə qısa müddət ərzində Abşeron yarımadası ərazisində təkmilləşdirilərək istifadəyə veriləcək.

"Bakcell" öz abunəçilərinin rahatlığını təmin etmək üçün ən qabaqcıl texnologiyalara investisiyalar yatırmaqda davam edəcək. 4G şəbəkəsi abunəçilərin cihazlarında batareyaların 2G şəbəkələri ilə müqayisədə daha uzunömürlü olmasına, hətta əhatə dairəsinin ən zəif olduğu sahələrdə daha yüksək keyfiyyət və sürətlə işləməsinə imkan verir. Telefonda siqnal gücünün işarəsi hətta iki zolaq göstərəndə də 5-10 Mbit/s sürət almaq mümkündür. Artıq "Bakcell" 4G şəbəkəsinin əhatə dairəsi Bakıda bəzi operatorların 3G şəbəkəsindən daha genişdir.

"Bakcell" şirkətinin ultra-sürətli genişzolaqlı mobil xidmətləri ilə ən müasir "LTE-Advance" texnologiyasından və innovasiyalardan istifadə etmək imkanına malik olmaq üçün "Bakcell" hamını imtiyazlı istifadəçilər klubuna qoşulmağa dəvət edir.




# "Nar" "Günlük" internet paketini təqdim edir

## Abunəçilər cəmi 10 qəpik ödəməklə 20 MB internet trafiki əldə edirlər

**Abunəçilərin rahatlığını təmin etməyə çalışan "Nar" yeni "Günlük" paketini təqdim edir. Dəyəri cəmi 0.10 AZN təşkil edən "Günlük" paketinə 20 MB internet trafiki daxildir. "Günlük" paketi əvvəllər mobil internetdən istifadə etməmiş abunəçilər üçün mükəmməl başlanğıcdır. Bu təklif Wi-Fi şəbəkəsinin əhatə etmədiyi ərazilərdə mobil internetdən istifadə hallarına görə əlavə ödənişlə üzləşmək istəməyən smartfon istifadəçiləri üçün də son dərəcə əlverişlidir.**

Xidməti aktivləşdirmək üçün "gunluk" yazaraq 777 qısa nömrəsinə göndərmək və ya *777#12#Yes şifrəsini yığmaq kifayətdir. "Günlük" paketini "Şəxsi kabinet", "eNəzarət" kimi xidmətlər vasitəsilə də aktiv etmək olar.

Təklif sadəcə səsli tariflərin istifadəçiləri üçündür.

Əlavə məlumatı bizim internet səhifəmizdən əldə edə bilərsiniz: https://www.nar.az/pages/default/pageName=modem_internet_pack_catalog&id=1238/

**Məşhur Qırğızstan balı Respublika sərgi - satış yarmarkasında**

- Arı südü
- Mumiya
- Möhtəşəm ağ bal
- İssık-Kul balı
- Esparset balı
- Çayek balı
- Karkıra balı və s.

Ünvan: Bakı şəhər, Nizami küçəsi 154 (keçmiş ayaqqabı fabriki) masa 137.

**Tel:** (051) 922-15-71

# Azərbaycan məhkəməsində biabırçı olay

## Yaxud dünyasını dəyişmiş şəxs məhkəməyə niyə çağırılıb və 3 yetimin haqqı necə yeyilib?..

**Azərbaycan məhkəmələrində çıxarılan hökm və qərarların absurdluğu sərhəd tanımır. Ədalət adına və Azərbaycan Respublikası adından çıxarılan sənədlərin son dayanacağında - Avropa Məhkəməsində cərimələnən isə həmin absurdları uyduranlar, hökm şəklinə salanlar yox, adı bədnam edilən Azərbaycan dövləti olur.**



Absurdlar qərarlarda, hökmlərdə daha iyrənc formalarda ortaya çıxır...

2009-cu ilin mayında Nərimanov rayonu, Nəvai küçəsi 24 ünvanında, *("Gənclik" metrostansiyası ətrafı)* ümumi sahəsi 136,7 kv.m olan restoran sökülüb. 2000-ci ildən icarəyə verilən restoran Bakı sakini Rasim Babayevə məxsus olub. Həmin il - yəni 2000-ci ildə R.Babayev həyat yoldaşı ilə birgə avtomobil qəzasında dünyalarını dəyişdiklərindən obyektə görə icarə haqqı almaq onların övladları - Rüxsarə, Ülviyyə və Yüksəl Babayevalara keçib. Təhsil almaq yaşında olan Babayevaların yeganə dolanışıq mənbəyi də həmin obyektin icarəsindən alınan vəsait olub.

2009-cu ildə obyekt söküləndən sonra Babayevalar məhkəmələrə üz tutublar. 2 saylı İnzibati İqtisad Məhkəməsinin hakimi Hökumə Babayeva sökülmüş obyektə görə iddiaçılara kompensasiya ödənilməsini qət edib. Lakin kompensasiya miqdarı az olduğundan qətnamədən Bakı Apelyasiya Məhkəməsinə şikayət verilib. İşə Bakı Apelyasiya Məhkəməsinin hakimləri - Nurəddin Mustafayev, Kəmalə Abiyeva və Mirzə Tağızadə baxıblar və... 2000-ci ildə faciəvi şəkildə dünyasını dəyişmiş Rasim Babayevi məhkəmədə dindirməyə həvəs göstəriblər.

Rasim Babayevin övladlarının vəkili Aqil Layıcov məhkəməyə şəxsin ölməsi haqda şəhadətnamə təqdim edib. Hakimlər isə israrlarından əl çəkməyiblər və birinci məhkəmə instansiyasında 3 yetimə atalarının əmlaklarına görə kompensasiya ödənilməsi haqda qətnaməni ləğv ediblər.

Rəhmətliyi dindirmək həvəsində olan hakimlərin qərarının Ali Məhkəmədə ləğv olunacağı ümidi də puça çıxıb. İki gün əvvəl Ali Məhkəmənin hakimi Sevda Hüseynova Bakı Apelyasiya Məhkəməsinin qərarını qüvvədə saxlayaraq işə ilkin instansiyada, özü də Rasim Babayevin iştirakı ilə (!!!) baxılmalı olması haqda qərar çıxarıb. Hakim qərarında yazıb ki, bəli, ölmüş şəxsin istəkləri dinlənilmədən, - dağıdılan əmlakın sənədində onun da adı var - birinci instansiya məhkəməsi qərar qəbul edə bilməzdi!

**Babayevaların yaxını olan politoloq Fərhad Mehdiyev məhkəmə qərarına özünün facebook statusunda belə reaksiya verib:** "Avropa Şurası deyəndə ki, Avropa İnsan Hüquqları Məhkəməsinə təyin olunmaq üçün biz qabiliyyətli Azərbaycan hakimi tapa bilmirik, çox düzgün buyururlar. Bu, heç də ikili standart-filan deyil. Məsələ də ondan irəli gəlmir ki, hakimlərimizin çoxu ingiliscə bilmir. Məsələ bundan ibarətdir ki, AŞ, sadəcə olaraq, o hakimlərdə elementar vicdanın olmasına şübhə edir. Bu ittiham subyektiv bir qənaət deyil. 3 yetimin əlindəki malını 2008-ci ildə dağıtdıran və onları əliboş qoyan Azərbaycan məmurlarını 2 ildən çoxdur ki, məhkəməyə verdiyim halda, Apelyasiya Məhkəməsinin hakimləri - adlarını da çəkirəm - Nurəddin Mustafayev, Kəmalə Abiyeva, Mirzə Tağızadə tərkibi ilə, **ÖLMÜŞ ŞƏXSİN** məhkəməyə gətirilməməsi səbəbi ilə, zatən cüzi olaraq kəsilən kompensasiya qərarını ləğv edir; Ali Məhkəmənin hakimi Sevda Hüseynova da bu qərardadı təsdiq edir. Xaricdə olduğum üçün Ali Məhkəmənin iclasında vəkil Aqil Layıcov iştirak etmişdi, xanım Hüseynova o iclasda bəyan edib ki, bəli, ölmüş şəxsin istəkləri dinlənilmədən, - dağıdılan əmlakın sənədində onun da adı var - birinci instansiya məhkəməsi qərar qəbul edə bilməzdi. İşin maraqlı halıdır ki, hakim Sevda Hüseynovanı Avropa Şurası təlimlərə alıb ona insan hüquqlarını, o cümlədən mülkiyyət hüququnun mühafizəsini öyrədib, hətta Strasburqa da aparıb. Nə fayda?"

**F.Mehdiyev yazır ki, 7 ildir 3 yetimin sökülən əmlakına görə kompensasiya ala bilmirlər:** "Bu ədalətsizliyi təsdiq edən hakim, sizin ümumiyyətlə, məhkəmədə nə işiniz var? Siz oranı professional hüquqşünaslara tərk edin, gedin mağaza açın, ticarətlə məşğul olun, o sizə daha çox yaraşar. Nə qədər ki, elə insanlar məhkəmələrdə işləyəcək, o zaman Avropa Məhkəməsinə təyin etmək üçün daha çox hakim axtaracağıq".

**E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

N 229 (6257) 16 oktyabr 2015

# Ən yaşlı quş 90 yaşında...

Hollivud filmlərinə çəkilən Panço adlı quş "dünyanın ən yaşlı tutuquşusu" hesab edilir. Bir neçə gün əvvəl İngiltərədə yubileyi qutlanan heyvan üçün tort da kəsilib. 90 yaşlı tutuquşu Jim Carreyin baş rolunu oynadığı "Heyvan detektivi" və Eddie Murphinin oynadığı "Dr.Dolittle" adlı filmlərdəki rolları ilə məşhurlaşıb. Sahibi Sofie Villiams Pançonun 10 ildir uçmadığını və Hollivuddan "təqaüdə" çıxdığını deyib. Panço adlı quş sonuncu dəfə 2000-ci ildə "102 Dalmaçıyalı" adlı filmdə rol alıb.



## Qrip ölümə səbəb ola bilər



Qış aylarında bədəni öz təsiri altına alan virusların başında qripə səbəb olan influenza A, B və C viruslarıdır. İnfluenza A, ev heyvanlarında, donuzlarda, quşlarda, insanlarda xəstəlik yaradır. Bunlara H1N1 virusları deyilir. C qrupunda olanlar çox yüngül təsir edir və epidemiyalara səbəb olmur. İnfluenza B qrupu isə sadəcə, insanlarda xəstəliyə səbəb olur.

Qrip yüksək hərarət, şiddətli ağrılar, zökəm və öskürək kimi əlamətlərlə ortaya çıxır. Ona görə bu virus mütləq müalicə edilməlidir. Əks halda, xəstədə müşahidə edilən hədsiz maye itkisi ölümə gətirə bilər. Qripdən qorunmaq üçün ilk növbədə immun sistemini gücləndirmək lazımdır. Bu xəstəliyə yaxalanmamaq üçün C vitamini qəbul etmək çox vacibdir. Qrip vaxtı yüksək dozada C vitamini qəbul etmək lazımdır. Meyvələrin çox istehlak edilməsinin də zərəri yoxdur.

Qripli şəxs ağır idmandan qaçmalıdır. Orqanizmi qüvvətləndirmək üçün vücudu yükləməmək lazımdır. Məşqlər qrip olmadan əvvəl müntəzəm olaraq aparılmalıdır. D vitamini çatmırsa, dərmanlardan istifadə edərək bu çatışmazlığı aradan qaldırmaq lazımdır. Sentyabr və oktyabr aylarında tətbiq edilən qrip vaksinlərinin insanları qripdən 100 faiz qorumadığı bəllidir. Qrip vaksinlərinin qoruyuculuq nisbəti yüzdə 70-lə 80 arasındadır. Yəni 20-30 faiz halda peyvənd olunduqdan sonra da qripə yaxalanmaq mümkündür. Peyvənd edildikdən 2-3 həftə sonra öz təsirini göstərir.

# Toyunda Obama ilə qarşılaşdı

**Amerikalı Stefan və Brian cütlüyü toy üçün şəkil çəkdirməyə getdikləri qolf sahəsində sürprizlə qarşılaşıblar. Belə ki, yeni evlənən cütlük Amerika prezidenti Barak Obama ilə görüşüb. Bir neçə ildir birlikdə olan cütlük Amerikanın səkkizinci böyük şəhəri San-Dieqonun ən populyar qolf meydanında toy şəkillərini çəkdirməyə qərar veriblər.**

Cütlüyün şəkillərini çəkən fotoqraf Jeff Youngren prezident Barak Obamanın orada qolf oynadığını deyib. Bunu eşidən gənclər Obamanı uzaqdan seyr ediblər. Amerika prezidenti oyunu bitdikdən sonra toyu olan cütlüyün yanına gələrək onları təbrik edib və şəkil çəkdirib. Gəlin Stepanie toy günlərində Obama ilə tanış olduğu üçün özünü çox xoşbəxt hiss etdiyini deyib. Fotoqraf Youngren isə bu özəl və səmimi günün şəkillərini çəkdiyi üçün özünü şanslı saydığını dilə gətirib.





## 2 dollara aldı, 5 milyon dollara satdı

**Məşhur döyüşçülərdən olan Billy the Kidin ikinci rəsminin milyonlarla dollara satılacağı güman edilir. Gerçək adı Henry Mckarty olan Billy the Kidin oyun oynayarkən çəkilən rəsmi hərraca çıxarılıb.**

Rəsm Kid dostları ilə birgə 1878-ci ildə bağçada oyun oynayarkən çəkilib. Sözügedən məşhur şəkili kolleksiyaçı Randy Guijarri Kaliforniyadakı bir adamdan 5 il əvvəl 2 dollara alıb. Hərracda satılacaq şəklin 5 milyon dollara satılacağı təxmin edilir. Billy the Kidin ilk rəsmi də 2,3 milyon dollara satılmışdı. Kid 22 yaşında 2 nəfəri öldürdükdən sonra həbsdən qaçarkən vurularaq öldürülüb. Ölümündən 130 il keçməsinə baxmayaraq Billy the Kid silahdan ustalıqla istifadə etməyi ilə tanınır.




QOÇ - Ötən dövrün gərginliyindən əsər-əlamət qalmayacaq. Üstəlik, sizə rəğbət bəsləyən adamların əksəriyyəti mövcud sıxıntılarınızı aradan qaldırmağa çalışacaq. Amma gərək siz də mövcud reallıqdan kənara çıxmayasınız.

BUĞA - Gücünüzü maliyyə problemlərinin həllinə yönəldin. Çünki fəaliyyətinizdəki bəzi boşluqlar büdcənizdə ciddi kəm-kəsirlər yaradıb. Sevgidə mövcud olan kobudluğunuzu da aradan qaldırın.

ƏKİZLƏR - Səhhətinizə ciddi fikir versəniz, bu təqvimdən narazı qalmayacaqsınız. Bu ərəfədə spirtli içki, siqaret və duzlu qidalar sizə daha çox mənfi təsir göstərəcək. Ciddi gəliriniz olmasa belə, kasıb qalmayacaqsınız.

XƏRÇƏNG - Ümumi yorğunluğu nəzərə almasaq, elə bir xoşagəlməzliklə rastlaşmayacaqsınız. Əksinə, nə vaxtdan bəri yığılıb qalmış problemlərinizin əksəriyyətini ustalıqla dəf edəcəksiniz. Axşam qonaq gedin.

ŞİR - Həmkarlarınızla ünsiyyətdə təşəbbüskarlığı əldən verməyin. Əgər borcla bağlı problemləriniz varsa, onu xətm etməyə səy göstərin. Axşama doğru maraqlı tanışlıqlar yolunuzu gözləsə də, sirlərinizi açmayın.

QIZ - Bir çox işlərdə qarşınıza ciddi uğurlar çıxaracaq. Hətta elə hadisələr baş verə bilər ki, bu, uzun müddət normal yaşayışınıza təminat verər. Bu səbəbdən də əzmkarlığınızı artırmalı, daha taktikalı gedişlər etməlisiniz.

TƏRƏZİ - Kosmik durum sizə enerji verəcək. Yeni işgüzar təkliflər alacağınız da qaçılmazdır. Bunu nəzərə alıb bir az müdrik olun. Deyilənlərə baxmayaraq, uzaq səfərə çıxmaq planlarınızı təxirə salmalısınız.

ƏQRƏB - Kifayət qədər ciddi uğurlar astanasındasınız. Elə etməlisiniz ki, hər addımınız ətrafdakılar tərəfindən gözlənilməz olsun. Çünki əvvəlcədən bildikləri təqdirdə sizə mane olacaqlar. Çılğın olmayın.

OXATAN - Əksər məsələlərə görə günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Xüsusən də saat 12-dən sonra şəxsi işlərinizdə müsbət dönüş baş qaldıracaq. Qarşınızda duran perspektivlərdən maksimum yararlanın.

OĞLAQ - Bəxtinizdə kifayət qədər riskli bir gün durur. Əgər özünüzdə cəsarət tapıb ötkəm addımlar atsanız, qarşınıza sipər çəkən istənilən maneəni dəf edə biləcəksiniz. Axşam ağlagəlməz yeniliklərin şahidi ola bilərsiniz.

SUTÖKƏN - Ulduzlar sizdə ruhi saflaşma prosesi başladığını bəyan edir və gərək Tanrıya xoş getməyən addımlardan yayınasınız. İstirahərə də yer ayırın. Yeri gəlmişkən, günün ən varlı bürcü siz olacaqsınız.

BALIQLAR - Şəxsi işlərinizdə, fəaliyyətdə, qarşılıqlı münasibətlərdə, həmçinin maliyyə məsələlərində kifayət qədər müvəffəqiyyətə nail olacaqsınız. Amma bunu proqnozla deyil, hərəkətlə reallaşdırmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Təyyarədə möcüzə-doğuş

**Balidən Los-Ancelesə uçan Çin Hava Yollarına aid təyyarədə səyahət edən qadın möcüzəvi doğuş gerçəkləşdirib. Yerdən 9 min metr yüksəkliyə qalxan təyyarədə körpə 8 həftə əvvəl dünyaya gəlib. Qadın doğuş sancısı başladıqdan sonra təyyarədə anons edilib və doğuşunun başladığı deyilib.**



Təyyarədəki bir həkim qadının uşağını dünyaya gətirməsinə kömək edib. Alyaskada təyyarənin yerə enməsindən yarım saat əvvəl uşaq doğulub. Sərnişinlərin maraqla gözlədiyi doğuş zamanı stüardessalar ananın ətrafını bağlayıblar. Təyyarədə lazımi qədər əşya olmadığından uşaq kağız dəsmallarla bükülüb. Qız uşağı dünyaya gətirən qadının səhhətinin yaxşı olduğu deyilir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.